www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 oktyabr 2018-ci il Şənbə № 216 (7105) Qiyməti 60 qəpik

**Xəbər**

**Ər arvadını döyüb evdən qovdu, sonra benzin töküb yandırdı**

yazısı səh.14-də

## Gündəm

**Parlamentdə rus dili və Rusiya universitetləri müzakirəsi**



**Gövhər Baxşəliyeva:** "İstənilən azərbaycanlının ilkin təhsili ana dilində olmalıdır; sadiq Azərbaycan vətəndaşı olmaq üçün bu, çox vacibdir"

yazısı səh.12-də

**Qərb Qarabağ nizamlanmasında fəallaşır - maraqlı gəlişmə**

yazısı səh.11-də

**Cahangir Hacıyevin arvadının 21 milyon funt xərclədiyi mağazadan reportaj**

yazısı səh.5-də

**"Azərbaycanın ABŞ üçün əhəmiyyəti sürətlə artır" - politoloq**

yazısı səh.9-da

**"Məktəbli uşaqların oğurlanması ilə bağlı deyilənlər yalandır" - DİN-dən açıqlama**

yazısı səh.13-də

**Amerikalı keşişin azad edilməsi Türkiyə-ABŞ münasibətlərini yumşaldacaq**

yazısı səh.10-da

**Məktəblərdə "fast-food"a qarşı yeni layihə başladıldı**

yazısı səh.15-də

**Qəbul və buraxılış imtahanlarında nələr dəyişilib - rəsmi açıqlama**

yazısı səh.2-də

**Xərçəngə səbəb olan asbest şiferlər: bazarlarda satılmır, amma...**

yazısı səh.15-də

**Mühacir vətəninə nə zaman təhlükəsiz dönə bilər?**

yazısı səh.7-də

**Diktatura rejimlərinin qisas mexanizmi - qəddar cəzalar**

yazısı səh.10-da

# TRAMPIN ADAMI BAKIYA XÜSUSİ TƏKLİFLƏ GƏLİR - QARABAĞ VƏ...

ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri gələn həftə regionda olacaq; **Qərbdən Azərbaycana güclənən emissar axınının səbəbi:** tufanqabağı "nəbz" yoxlanışı, yoxsa? Ermənistan daha qəliz durumla üz-üzə...




yazısı səh.8-də

# Vaxtilə Bakını pis günə qoymuş məmurlar hədəfdə

Prezidentin tənqidləri BŞİH-in keçmiş rəhbəri Hacıbala Abutalıbovun vəziyyətini pisləşdirib; onunla birlikdə pozuntulara yol vermiş şəxslər də cavab verməli olacaqlar...

yazısı səh.3-də



**Vahid Əhmədovun Rüfət Aslanlını sərt tənqid etməsinin ilginc səbəbləri**

yazısı səh.3-də



*Arzuxan Əlizadə:*

**"Qarabağ naminə Rusiya ilə müəyyən razılaşmaya getməliyik"**

yazısı səh.9-da



**Cavid Qurbanov dəmiryollarında böyük layihələrin anonsunu verdi**

yazısı səh.6-da

# Qəbul və buraxılış imtahanlarında nələr dəyişilib - rəsmi açıqlama

**Dövlət İmtahan Mərkəzinin mətbuat katibi Xanlar Xanlarzadə deyir ki, şagirdlərin buraxılış imtahanın nəticələri ali məktəblərə qəbul zamanı nəzərə alınacaq.**

Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyi tərəfindən birgə hazırlanan 2019-cu ildə tətbiqi nəzərdə tutulan ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının modeli açıqlanıb.

Dövlət İmtahan Mərkəzinin mətbuat katibi Xanlar Xanlarzadə Sputnik Azərbaycan-a deyir ki, IX sinif üzrə buraxılış imtahaları əvvəlki qaydada olduğu kimi keçiriləcək, lakin gələn ildən şagirdlər iki deyil, 3 fəndən imtahan verəcəklər:

"XI siniflərin buraxılış imtahanları isə yenə də 3 fənn üzrə keçiriləcək. Burada əsas dəyişiklik ondan ibarətdir ki, buraxılış imtahanın nəticələri ali məktəblərə qəbul zamanı nəzərə alınacaq. Abituriyentlər ali məktəblərə qəbul imtahanında isə əvvəlki kimi 5 deyil, 3 fənn üzrə imtahan verəcəklər. Tədris dili fərqli olan məktəblərin şagirdləri mütləq azərbaycan dilindən imtahan verəcəklər".



## Prezident jurnalistin müalicəsi ilə bağlı göstəriş verdi

**Azərbaycan Prezidenti İlham Əliyev jurnalist Səbuhi Məmmədlinin səhhətində yaranmış problemlərin aradan qaldırılmasına kömək göstərilməsinə dair müvafiq göstəriş verib.**

Bu barədə "Report"a Azərbaycan Mətbuat Şurasından bildirilib.

Belə ki, Azərbaycan Mətbuat Şurasının bununla bağlı dövlət başçısına ünvanladığı məktuba cavab olaraq jurnalistin sağlıq durumunun yaxşılaşması üçün tədbirlərin görüləcəyi bildirilib.

Şuranın Prezident İlham Əliyevə ünvanladığı məktubda Azərbaycanda həyata keçirilən media siyasətinin öz fundamental əsaslarını müxtəlif dövlət sənədlərində tapdığı vurğulanıb. Bu siyasətin eyni zamanda insanpərvərlik, hümunistlik kimi ali dəyərlərə söykəndiyi diqqətə çatdırılıb. Bildirilib ki, jurnalistlərimiz mövcud məqamı xüsusi vurğulayır, nəcib əməl və təşəbbüsləri misilsiz örnək nümunəsi olaraq təqdim edirlər.

"Ölkəmizin nüfuzlu kütləvi informasiya vasitələrində repartyor kimi çalışmış istedadlı jurnalist Səbuhi Məmmədli də Sizin şəxsinizdə Azərbaycan dövlətinin humanist yanaşmasına ehtiyac duyur. O, kəskin şəkərli diabetdən, qara ciyər və ürək çatışmazlığından əziyyət çəkir. Hazırda səhhəti ağırlaşmış jurnalistin həyatı təhlükədədir. Buna görə də ölkənin media ictimaiyyəti adından Sizə üz tutur, ona müvafiq kömək göstərilməsini xahiş edirik. Əminik ki, həssas münasibətiniz, şəxsi diqqətiniz sayəsində Səbuhi Məmmədlinin sağlığına qovuşması ilə bağlı zəruri tədbirlər həyata keçiriləcəkdir", - deyə Mətbuat Şurasının müraciətində bildirilib.

## Ağcabədidə yeni məktəb binasının tikintisinə 1 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Ağcabədi rayonunun Salmanbəyli kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Ağcabədi rayonunun Salmanbəyli kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi məqsədi ilə Azərbaycanın 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, İqtisadiyyat Nazirliyinə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamda göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutmaq tapşırılır.

Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Bakıda və rayonlarda yağış yağacaq

**Oktyabrın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən-buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 13-15, gündüz 16-19, Bakıda gecə 13-15, gündüz 17-19 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı ehtimalı var. Gündüz yağışda fasilə olacaq. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 11-16, gündüz 17-22, dağlarda gecə 4-9, gündüz 9-14 dərəcə isti təşkil edəcək.

### Başsağlığı

**Rauf Arifoğlu və Azər Ayxan Eyyub Əkbərova oğlu Eldənizin vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

***

**İsa Hüseynov Eyyub Əkbərova oğlu Eldənizin vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**



## SOCAR-la "Qazprom" arasında perspektiv əməkdaşlıq müzakirələri...

**SOCAR Rusiyanın "Qazprom" şirkəti ilə Azərbaycana təbii qaz tədarükünü müzakirə edib.**

Virtualaz.org bildirir ki, bu barədə "Qazprom" məlumat yayıb.

Qeyd olunur ki, SOCAR-ın prezidenti Rövnəq Abdullayev oktyabrın 12-də Sankt-Peterburqda "Gazprom"un idarə heyətinin sədri Aleksey Miller ilə görüşüb. Görüşdə Azərbaycana qaz tədarükü müzakirə olunub.

Qeyd edilib ki, təbii qaz nəqli bərpa edilən vaxtdan - 2017-ci il noyabrın 22-dən indiyə qədər "Gazprom" Azərbaycana 1,15 milyard kubmetr qaz göndərib. Tərəflər bu istiqamətdə əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

## Gürcüstan həbsxanalarındakı azərbaycanlıların sayı açıqlandı

**Gürcüstan həbsxanalarında 92 nəfər Azərbaycan vətəndaşı saxlanılır.**

Oxu.Az "Qruziya Online" portalına istinadla xəbər verir ki, bununla bağlı məlumat Gürcüstan Ədliyyə Nazirliyinin bu ilin avqustunda yayımladığı hesabatında yerləşdirilib.

18 nəfər ittiham edilən, 74-ü isə məhkum olunanlardır. İttiham olunanlardan 16-sı kişi, ikisi qadındır, məhkumlardan isə 67-si kişi, yeddisi isə qadındır. Gürcüstan həbsxanalarında saxlanılan əcnəbilər arasında Azərbaycan vətəndaşları 16,1% hissəni əhatə edir.

**Qeyd edilib ki, Gürcüstan həbsxanalarında 66 Rusiya, 96 İran və 29 Ermənistan vətəndaşı saxlanılır.**



## Daşkənddə MDB müdafiə nazirləri hərbi əməkdaşlıq məsələlərini müzakirə ediblər

**Özbəkistanın Daşkənd şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iclasda iştirak edib.**

İclasda müdafiə nazirləri cari hərbi əməkdaşlıq və qarşıda duran məsələləri müzakirə ediblər.

## Polşa vətəndaşı Azərbaycandan üzr istədi

**Polşa Respublikasının vətəndaşı, Volominin starostası Kazimir Rakovski Azərbaycan Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib.**

Bu barədə virtualaz.org-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

K.Rakovski Azərbaycan Respublikasının suverenliyinə və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazi bütövlüyünə, habelə Azərbaycan Respublikası ərazisində qüvvədə olan qanun və qaydalara hörmət etdiyini vurğulayıb. O, regiona səfərinin səbəb olduğu bütün çətinliklərə və nəticələrinə görə üzrxahlığının qəbul edilməsini və adının "Arzuolunmaz şəxslərin siyahısı"ndan çıxarılmasını xahiş edib.

K.Rakovskinin müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## AZAL reysləri İstanbulun üçüncü hava limanına yönləndirəcək

**"Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti hazırda İstanbulun Atatürk hava limanına hərəkət edən reysləri üçüncü hava limanına yönləndirəcək.**

Bu barədə Trend-ə AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski deyib.

P.Kəsəmənskinin sözlərinə görə, yeni hava limanına müntəzəm reyslər həm AZAL, həm də "Silk Way" tərəfindən həyata keçiriləcək:

"Yeni hava limanında tarif siyasəti "Atatürk" hava limanı ilə eyni səviyyədə qalacaq".

P.Kəsəmənski əlavə edib ki, "Buta Airways" aviaşirkəti indiki tarif siyasəti çərçivəsində "Sabiha Gökçən" hava limanına reysləri davam etdirəcək.

## Gəncə hadisələrinin iştirakçılarından biri Moskvada tutuldu

**Azərbaycanın sorğusu əsasında axtarışda olan şəxs oktyabrın 11-də Moskvada saxlanılıb. Bu barədə Rusiya KİV-i məlumat yayıb.**

Saxlanılan şəxsin adı açıqlanmır. Bildirilir ki, 34 yaşı var. Terrorizm, hakimiyyətin zorla ələ keçirilməsi, dövlət əleyhinə çağırılşlar və dövlət xadiminin həyatına qəsd ittihamı ilə bu ilin iyulundan axtarışda olub. Həmin şəxs Moskvanın arxitektor Vlasov küçəsində saxlanılıb.

Hüquq-mühafizə orqanlarının məlumatına görə, sözügedən şəxs Gəncə hadisələri ilə əlaqədar saxlanılır.

**Rusiya və Azərbaycanın müvafiq orqanları saxlanılan şəxsin ekstradisiyası məsələsini həll edirlər.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

**Dövlət başçısı İlham Əliyev oktyabrın 10-da ilin 9 ayının yekunları ilə bağlı Nazirlər Kabinetinin toplantısında bir çox vacib məsələlərə toxunub. Onlardan biri də, Bakıda qanunsuz-nizamsız tikilən binalarla bağlı olub. Prezident bu sahədəki vəziyyətlə bağlı ciddi xəbərdarlıqlar edib. Bu qanunsuzluqlara yol vermiş dövlət qurumlarının fəaliyyətini sərt formada tənqid edib və belə hallar davam edəcəyi təqdirdə aidiyyatı şəxslərin məsuliyyətə cəlb ediləcəyini dilə gətirib. Sitat: "Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz. Bu məsələ ilə bağlı mən əvvəllər də fikirlərimi bildirmişəm. Bu gün deyə bilərəm ki, artıq bu məsələ öz həllini tapıb. Çünki əvvəlki dövrlərdə təqsiri bələdiyyələr rayon icra hakimiyyətlərinin, rayon icra hakimiyyətləri Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyəti bələdiyyələrin, yəni bir-birinin üstünə atırdılar. Amma əslində hamısı əlbir idilər. Çünki qanunsuz tikililərdən böyük qazanc əldə edirdilər. Buna son qoyulub, artıq sərəncam imzalanıb. Yəni, bu qaydanı pozan cinayət məsuliyyətinə cəlb ediləcək və qanunsuz tikilən binalar dərhal söküləcək".**

# Vaxtilə Bakını pis günə qoymuş məmurlar hədəfdə

## Prezidentin tənqidləri BŞİH-in keçmiş rəhbəri Hacıbala Abutalıbovun vəziyyətini pisləşdirib; onunla birlikdə pozuntulara yol vermiş şəxslər də cavab verməli olacaqlar...



Prezident həmçinin bildirib ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və kiminsə tamahı naminə biz şəhərimizi eybəcər hala sala bilmərik: "Şəhərsalma qaydaları var, mərtəbələrin yerə görə hündürlüyü var. Hava axınının müvafiq qaydaları var. Bizdə isə bu, pozulurdu. Elə bil ki, böyük bir sədd tikirdilər. Havanın keçməsi üçün heç bir imkan qalmırdı, həyətlərdə ağacları qırıb binalar tikirdilər. Yerli orqanlar buna həm göz yumurdular, həm də yəqin ki, əlbir idilər. İndi buna son qoyulub. Mən bunu bildirmək istəyirəm. Vətəndaşlara da müraciət etmək istəyirəm, ilk növbədə, təşəkkürümü bildirmək istəyirəm. Çünki bir çox hallarda vətəndaşların fəallığı nəticəsində o tamahkar adamlar istədiklərinə nail ola bilməmişlər. Bir daha vətəndaşlara müraciət edirəm. Əgər haradasa görsələr ki, qanunsuz nəsə tikilir, dərhal məlumat versinlər, ilk növbədə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Prezident Administrasiyasına. Bu sahədə də qayda-qanun yaradılır".

*Qeyd edək ki, ölkə başçısının vurğuladığı nöqsanlar əsasən Hacıbala Abutalıbovun vaxtında baş verib. Əgər Bakıda tikilən qanunsuz tikililərlə bağlı hər hansı cinayət işi başladılsa, o zaman ilk məsuliyyət daşıyanlardan biri də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı H.Abutalıbov ola bilər. Bəs görəsən, prezident İlham Əliyevin bu çıxışından sonra Hacıbala Abutalıbovu nə gözləyir?*

**"Yeni Müsavat"a açıqlamasında bu sualı cavablandıran hüquqşünas Əkrəm Həsənov da Hacıbala Abutalıovun bu qanunsuzluğa cavabdeh şəxslərdən biri olduğunu bildirib:** "Əlbəttə, dövlət başçısının çıxışından elə bu nəticə çıxır ki, qanunsuz əməllərə yol verənlər arasında əsas rol məhz Bakı Şəhər İcra Hakimiyyətinindir və ən azı formal olaraq, BŞİH-in sabiq rəhbəri Hacıbala Abutalıbovundur. Təbii ki, vəzifədən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, korrupsiya, rüşvətxorluq və sairlə bağlı faktlar üzə çıxsa, Bakı Şəhər İcra Hakimiyyətinin və digər orqanların rəhbərləri və günahkar işçiləri buna görə cavab verməlidirlər".

**Əkrəm Həsənov bir məqamı da diqqətə çatdırdı ki, Hacıbala Abutalıbovun real səlahiyyəti bir çox hallarda formal olaraq qol çəkməkdən ibarət olub**: "Onu da nəzərə almaq lazımdır ki, ictimaiyyətə də bəlli olduğu kimi Bakı Şəhər İcra Hakimiyyətinin sabiq rəhbəri bir çox məsələlər üzrə müstəqil qərar qəbul etmirdi. İcra hakimiyyətində bu cür məsələlər üzrə ondan da nüfuzlu, rəhbər vəzifəli şəxslər otururdu. Faktiki olaraq, bir sıra hallarda Hacıbala Abutalıbovun rolu formal olub, yəni qol çəkməkdən ibarət olub. Mən bu barədə ictimaiyyət arasında mövcud olan fikrə əsaslanıram. Bu təsdiqini tapsa, onun məsuliyyəti bir qədər az ola bilər, bu işləri görənlər daha çox məsuliyyət daşıya bilər. Mən bunları deməklə onun məsuliyyətini azaltmaq istəmirəm. Formal da olsa, imza atmaq, qanunsuzluğa qol qoymaq özü də qanun pozuntusudur".

**Hüquqşünasın fikrincə, dövlət başçısının çıxışından sonra cinayət işi açılarsa, H.Abutalıbovla yanaşı vaxtilə pozuntulara yol vermiş və hələ də orada qalıb çalışan şəxslər də cavab verməli olacaqlar:** "Sadəcə olaraq, məhkəmələrimizdə hüquqi şəxslər və şirkətlərlə bağlı belə bir praktika var ki, əgər həmin qurumda direktorun və ya rəhbərin rolu formaldırsa, yalnız imzalamaqdan ibarətdirsə, onun məsuliyyəti ya heç yoxdur, ya da azdır. Ancaq söhbət dövlət qurumunun rəhbərliyindən gedirsə, heç bir məsuliyyətin olmamasından söhbət gedə bilməz. Əgər belə bir cinayət işləri açılsa, böyük ehtimalla Bakı Şəhər İcra Hakimiyyətinin sabiq rəhbərliyi də, vaxtilə pozuntulara yol vermiş və hələ də orada qalıb çalışan şəxslər də cavab verməlidirlər".

❑ Nərgiz LİFTİYEVA,
"Yeni Müsavat"

# Vahid Əhmədovun Rüfət Aslanlını sərt tənqid etməsinin ilginc səbəbləri

## Millət vəkillərinin hazırladığı kredit böhranından çıxış yollarına dair layihənin həyata keçməsinin qarşısını MBNP-nın Direktorlar Şurasının sədri alıbmış

**Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının ləğvindən sonra bu şuraya rəhbərlik etmiş Rüfət Aslanlının yarıtmaz fəaliyyətinə dair açıqlamalar verilir.**

Xeyli müddətdir Palatada Direktorlar Şurasının sədri Rüfət Aslanlının idarəçilik səlahiyyətlərinin faktiki olaraq əlindən alındığı hər kəsə məlum idi. Bu baxımdan, onun vəzifəsinin birdəfəlik ləğvi çoxları üçün gözlənilməz olmadı. Az bir qisim sabiq sədrin işinin peşəkarı olduğunu söyləsə də, əksər iqtisadçılar onu müsbət xarakterizə etmir.

R.Aslanlının Palatadan uzaqlaşdırılmasını xeyli razılıqla qarşılanır. Məsələn, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirir ki, R.Aslanlının rəhbərlik etdiyi Palatanın fəaliyyətində ciddi nöqsanlar vardı. Deputat qeyd edib ki, Maliyyə Bazarlarına Nəzarət Palatası yaranan vaxt böyük gözləntilər vardı: "Amma çox təəssüflər olsun ki, bu gözləntilər özünü o qədər də doğrultmadı, ciddi səhvlərə yol verildi. Bu haqda mətbuatda da geniş yazıldı. Amma düşünürəm ki, dövlət başçısının Palata ilə bağlı imzaladığı son sənəddən sonra bu qurumun fəaliyyətində ciddi dönüş yaranacaq. Çünki buna ciddi ehtiyac var və artıq ilkin müsbət işartılar da özünü göstərməkdədir".

R.Aslanlı barədə ən sərt fikirləri isə millət vəkili, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov səsləndirdi. Onun sözlərinə görə, Prezident R.Aslanlı ilə bağlı düzgün qərar verib: "Vaxtında biz bu Palata ilə bağlı məsələləri qaldıranda bəzi deputatlar bizim əleyhimizə çıxış etdilər. Ancaq biz haqlı idik. Palata 2 ildən artıqdır ki, fəaliyyət göstərsə də, yalnız son 6 ayda baş icraçı direktor İbrahim Alışovun rəhbərliyi dövründə maliyyə sektorunda dirçəlmə olub. Həftədə 2-3 dəfə onunla danışıram. Dollarda götürülmüş kreditlərlə bağlı problemlər var. Hesab edirəm ki, prezident onunla bağlı düzgün qərar verdi".

Deputat söyləyib ki, yeni rəhbərliklə müəyyən məsələləri müzakirə edə bilirlər: "Rəhbərlikdə normal insan olanda danışmaq olur. Yoxsa gedib o birisi, çaxır buraxır. Üstünə adını yazdırır. 65 min manat maaşı da özün alır (Rüfət Aslanlını nəzərdə tutur-red). Bu harda görülüb ki? Normal adam olsaydı, normal işləyərdi".

İndiyədək vəzifədən alınan heç bir məmur barədə mənfi fikir səsləndirməyən V.Əhmədovun R.Aslanlı barədə bu qədər kəskin danışmasının səbəbi nədir? Əldə etdiyimiz məlumata görə, millət vəkili həmkarı Əli Məsimli ilə birlikdə xarici valyutada olan kreditlərlə bağlı problemin həllinə dair hazırladığı təklifləri hökumətdə qəbul edilməməsinin əsas günahkarı olaraq da R.Aslanlını görür.



Vahid Əhmədov



Rüfət Aslanlı

Xatırladaq ki, 2015-ci il devalvasiyalarından sonra əhali ilə banklar arasında dollarla götürülmüş kreditlərlə bağlı ciddi böhran yaranmışdı. Həmin ərəfədə millət vəkilləri V.Əhmədov və Ə.Məsimli problemin həllinə dair təkliflər paketi hazırlayaraq hökumətə təqdim etdilər. Təkliflər paketində borclara görə məsuliyyətin dörd tərəf arasında -hökumət, Mərkəzi Bank, banklar və əhali arasında bölünməsi nəzərdə tutulurdu. 5000 dollara qədər - imkan olsa, 10 000 dollaradək olan borcların 1dollar = 1,05 manatdan, ondan böyük məbləğlərin isə 1 dollar = 1,20 - 1,30 manat intervalında olan məzənnə ilə qaytarılması təklif edilirdi. Bundan əlavə, millət vəkilləri "Fiziki şəxslərin müflisləşməsi haqqında" qanunun qəbul edilməsini, şəhid ailələrı, kimsəsizlər, aşağı pensiya alan pensiyaçılar, krediti qaytarmaq üçün bütün imkanları tükənmiş yoxsul insanların aldıqları kreditlərin isə məhkəmə yolu ilə müflisləşmə mexanizmi vasitəsilə bağışlanmasını təklif edirdilər. Əvəzində dövlətin banklara birbaşa və dolayısı ilə dəstək verməsi, bu yolla bankların fəaliyyətinin normallaşdırılması nəzərdə tutulurdu.

Təkliflər paketi hökumətə təqdim edildikdən və detalları açıqlandıqdan sonra ictimaiyyət tərəfindən ciddi dəstək qazandı. Eyni zamanda bəzi hökumət məmurlarından, xüsusilə də Mərkəzi Bankı sədri Elman Rüstəmovdan problemli kreditlər məsələsinin həllində dövlət dəstəyinin mümkünlüyü ilə bağlı müsbət rəylərin verilməsi paketin tezliklə qəbul olunacağına dair ümidlər yaratmışdı. Lakin az sonra R.Aslanlı məsələyə münasibət bildirərək, dövlətin hər hansı formada problemli kreditlər məsələsinin həllində iştirakına qarşı olduğunu vurğuladı. Eyni zamanda maliyyə naziri Samir Şərifov da təxminən eyni mövqeni dəstəkləyən fikirlər səsləndirdi. Bununla da millət vəkillərinin təkliflərinin reallaşacağına olan ümidlər aradan qalxmış oldu.

**Belə güman edilir ki, V.Əhmədovun R.Aslanlı barədə kəskin fikirləri sonuncunun daha çox problemli kreditlərlə bağlı mövqeyindən qaynaqlanır. Millət vəkili eyni zamanda "rəhbərlikdə normal insan olanda normal danışmaq olur" deyir. Bununla da V.Əhmədov R.Aslanlının rəhbərliyi dövründə millət vəkili olaraq sözlərinin eşidilimədiyini, mövqelərinin nəzərə alınmadığını diqqətə çatdırır.**

❑ DÜNYA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 216 (7105) 13 oktyabr 2018

# “2019-cu ildə test tapşırıqlarının strukturunda da dəyişiklik olacaq”

## Təhsil eksperti: “Abituriyentlər yalnız DİM-in çap etdiyi materiallardan istifadə etməlidirlər”

**Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi (DİM) və Təhsil Nazirliyi tərəfindən buraxılış imtahanları və ali məktəblərə qəbul imtahanlarında ciddi dəyişikliklər edilib və yeni model ictimaiyyətə təqdim edilib.**

Belə ki, 11 illik təhsil bazasında buraxılış imtahanı 1 mərhələdə keçiriləcək. Şagirdlər Tədris dili ( Azərbaycan dili, rus), riyaziyyat, xarici dillər ( ingilis, alman, fransız, ərəb, fars) fənlərindən imtahan verəcək. Hər fənn üzrə maksimal bal 100 (ümumilikdə 300) olacaq. Qəbul imtahanında isə maksimal bal 400 olacaq. I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə zamanı abituriyentlərin buraxılış imtahanından əldə etdikləri nəticələri də nəzərə alınacaq və qəbul imtahanından toplanılan balın üzərinə əlavə olunacaq. Yəni abituriyentlər buraxılış və qəbul imtahanlarında topladıqları balların cəminə (maksimal bal - 300+400=700 bal) əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edəcəklər.

Son yeniliklərdən sonra abituriyentlərin hazırlıq prosesində, repetitorluq sistemində dəyişikliklərin olacağı qaçılmazdır.

*Bəs görəsən, abituriyentlər yeni sistemə necə uyğunlaşacaqlar? Öncəki illərdə bu sistem test edilibmi?*

“Yeni Müsavat”ın sualını cavablandıran **təhsil eksperti Kamran Əsədov** bildirdi ki, bu il imtahan verəcək şagirdlər əslində yeni qaydalarla tanışdırlar: “İlk növbədə qeyd edim ki, 2008-2009-cu tədris ildən etibarən ölkənin ümumtəhsil müəssisələrində uşaqların tədrisi yeni dərs proqramlarına əsasən - kurrikulumla həyata keçirilir, yeni standartlara uyğun məzmunda hazırlanmış dərsliklərdən istifadə olunur.


Kamran Əsədov

Deməli, kurrikulum həm də uşaqların bilik və bacarıqlarının qiymətləndirilməsi üzrə yeni vasitələr nəzərdə tutur. Məhz buna görə də, 2008-ci ildə ilk dəfə I sinifə getmiş şagirdlər 2019-cu ildə XI sinifi bitirib məzun olacaqlar. Onların bilik və bacarıqları tamamilə yeni formatda yoxlanılacaq - ölçüləcək. Əslində bu yeni sistem ilk dəfə imtahan verəcək şagirdlər üçün yeni deyil. 2017-ci ildə ümumi orta təhsil səviyyəsində (9 il) təhsil alanların biliklərinin yekun qiymətləndirilməsi üzrə imtahan yeni qaydalar əsasında keçirilib. Yəni 2019-cu ildən etibarən tam orta təhsil səviyyəsində (11 il) təhsil alanlar üçün buraxılış imtahanları, habelə ali və orta ixtisas məktəblərinə qəbul imtahanları məhz 2017-ci ildən tətbiq edilən formatda keçiriləcək”.

**Ekspert bildirdi ki, yeni modeldə abituriyentlər sualları cavablandırarkən sadəcə beş variantdan birini seçməklə deyil, açıq tipli testləri müstəqil cavablandırmaqla biliklərini göstərəcəklər:** “2019-cu ildə tətbiq ediləcək yeni imtahanda təqdim ediləcək test tapşırıqlarının strukturunda da dəyişiklik olacaq. Hazırda olduğu kimi dörd cavab variantından birini seçməyi tələb edən deyil, tapşırığın müstəqil şəkildə həllini, əsaslandırılmasını və yazılı formada açıqlanmasını tələb edən açıq tipli testlərin sayı artırılacaq. Abituriyentin biliyinin qiymətləndirilməsi balları da dəyişəcək. Buraxılış imtahanları üzrə maksimum bal 300, qəbul imtahanları üzrə 400 bal olaraq müəyyən edilib. Beləliklə, ali təhsil müəssisələrinə qəbul zamanı 700 ballıq sistem davam edəcək. Ali məktəblərə qəbul zamanı buraxılış və qəbul imtahanlarının ümumi nəticəsi nəzərə alınacaq, amma abituriyentlərin yekun nəticəsi 700 ballıq sistem üzrə qiymətləndiriləcək. İlk dəfə imtahanda iştirak edən şagirdlər əgər yaxşı nəticə əldə etmək isttəyirlərsə, yalnız DİM-in siniflər üzrə nəşr etdiyi sinif test kitabçalarını işləməlidirlər. Bundan başqa, DİM 2019-cu il qəbul imtahanı modelini özündə əks etdirən, yeni qiymətləndirmə formatına uyğun test tapşırıqlarının təqdim olunduğu test bankları almalıdırlar”.

K.Əsədov onu da diqqətə çatdırdı ki, abituriyentlərin yeni test sisteminə hazırlaşması üçün Dövlət İmtahan Mərkəzinin təqdim etdiyi test tapşırıqları azlıq təşkil edir: “Hal - hazırda məktəbli bazarında müxtəlif müəlliflər, hazırlıq kursları tərəfindən hazırlanıb çap olunmuş çoxsaylı vəsaitlər var. Onların heç bir hüquqi əsası yoxdur. Çünki ölkədə qəbul, buraxılış və sınaq imtahanlarını keçirən yeganə orqan Dövlət İmtahan Mərkəzidir və imtahan iştirakçıları yalnız onların təqdim etdiyi materiallara etibar etməlidirlər. Çünki yeni qəbul qaydalarına uyğun test modelləri azlıq təşkil edir. Amma müxtəlif kurslar və şəxslər özlərinin məhsulu olan test nümunələrini təqdim edirlər və şagirdlər də o formatda hazırlaşır. Nəticədə şagirdlər DİM-in keçirdiyi qəbul və digər imtahanlarda iştirak edəndə aşağı nəticə göstərirlər”.

**Ekspertin sözlərinə görə, bir neçə günə DİM tərəfidən 2019-cu il qəbul modeli üçün abituriyent jurnalının xüsusi buraxılışı çap olunacaq və şagirdlər yalnız bundan istifadə etməlidirlər:** “2019-cu ildə tətbiq ediləcək yeniliklərdənə biri də xarici dil fənnindən dinləmə tələb edən test tapşırıqlarıdır ki, bunun həlli üçün orta məktəb proqramında kifayət qədər material var. Xüsusi olaraq qeyd edim ki, 2019-cu ildə keçiriləcək qəbul imtahanlarında fənlər üzrə proqramlar tamamilə dəyişəcək. Bizim həm hazırlıq kursları, həmdə repetitorların əksəriyyəti hələ də köhnə, ənənəvi proqramla tədris həyata keçirirlər. Qeyd edim ki, qəbul imtahanlarında istifadə olunan bütün fənlərin proqramı dəyişib. DİM oktyabr ayında yeni proqramı təqdim edəcək. Ona görə də imtahanda iştirak edəcək şagirdlər yalnız orta məktəb dərsliklərindən və DİM - in çap etdiyi materiallardan istifadə etməlidirlər. Yaxın həftələrdə DİM tərəfindən 2019-cu il qəbul modeli üçün abituriyent jurnalının xüsusi buraxılışı çap olunacaq. Ona görə də şagirdlər yalnız bundan istifadə etməlidirlər. Təəssüf ki, hələ də bir çox müəllim köhnə qaydada, qapalı və faktoloji testləri şagirdlərə işlədir. Çünki onlar yeni qəbul qaydalarını bilmirlər. Şagirdlər daha çox fakt əzbərləmək yerinə, səbəb - nəticə , müqayisə etmək bacarığına sahib olmalıdırlar”.

❑ Nərgiz LİFTİYEVA,
“Yeni Müsavat”

# “Uşaq xəstələnəndə məktəbdən uzaqlaşdırılmalıdır”

## Virus infeksiyalarına yoluxan uşaqların məktəbə gəlməməsi üçün direktorlara rəsmi müraciət edildi

**Azərbaycan Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (RGEM) yerli şöbələri tərəfindən ölkədəki bütün orta məktəblərə qripə və kəskin respirator infeksiyalara qarşı profilaktik tədbirlər çərçivəsində filtr işinin təşkil edilməsi üçün müraciət edilib.**

Bunu özəl olaraq Trend-ə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Hava-damcı infeksiyaları bölməsinin həkim-epidemioloqu Nəzmiyyə Brumendfard deyib.

Onun sözlərinə görə, səhiyyə naziri Oqtay Şirəliyevin imzaladığı “2018-2019-cu ilin payız-qış mövsümündə respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə” əmrində qeyd edilən tədbirlərdən biri qrip və kəskin respirator virus infeksiyalarının yayılmasının qarşısının alınması məqsədilə ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində tibbi müşahidələrin aparılmasıdır.

Bu əmrlə bağlı artıq RGEM-in yerli şöbələri nəzarətlərində olan bütün məktəblərin direktorlarını, tibb bacılarını, yaxud tibb bacılarının çalışdığı poliklinikaların baş həkimlərini məlumatlandırıb və onlara qripə qarşı işlərin görülməsi tapşırılıb:




“Artıq orta məktəblərdə bu istiqamətdə işlərə başlanılıb. Bu işlərdən biri məktəblərdə filter işinin təşkil olunmasıdır. Filtr işinin mahiyyəti odur ki, xəstə uşaq məktəbdən uzaqlaşdırılmalıdır. Bu iş məktəbdəki tibb işçisinin köməyi ilə təşkil edilir. Qış mövsümündə kəskin respirator infeksiyalara yoluxma ilə bağlı vəziyyət kəskinləşdikdə bu işə sinif rəhbərlərini də cəlb edirik”.

N.Brumendfard qeyd edib ki, şagird sayı çox olan məktəblərdə tibb bacılarının dərs başlamazdan əvvəl məktəbin girişində bütün şagirdlərin sağlamlıq vəziyyətini yoxlaması çətindir: “Ona görə də biz bu işə məktəbin sinif rəhbərlərini də cəlb edirik. Hər gün səhər sinif rəhbəri öz sinfindəki uşaqların sağlamlıq vəziyyətini qiymətləndirməlidir. Uşaq özünü yaxşı hiss etmirsə, asqırır, öskürürsə, valideynə zəng edir və uşaq sinifdən kənarlaşdırılır. Yaxud da şagird tibb bacısına qızdırma və s. ilə bağlı müraciət edirsə, tibb bacısı ona qızdırmasalıcı dərman verərək yenidən sinfə göndərməməlidir. Belə şagird artıq sinifdən uzaqlaşdırılmalıdır”.

Həkim-epidemioloq əlavə edib ki, şəhər, rayon dezinfeksiya stansiyalarına yoluxma hadisələrinin sayı çox olacağı təqdirdə, məktəblərdə dezinfeksiya işlərinin aparılması üçün göstəriş də verilib.

**Yoluxma ocaqları barədə hər ay onlara məlumatların verildiyini deyən RGEM rəsmisi bildirib ki, hazırda məktəblərdə yoluxma halları ilə bağlı narahatlıq olmadığı üçün hələlik dezinfeksiya işlərinə başlanılmayıb.**

YENİ MÜSAVAT
N 216 (7105) 13 oktyabr 2018

# Deputat Qüdrət Şükürova görə Maliyyə Nazirliyini ittiham etdi-reaksiyalar gəldi


Aqil Abbas

**Deputat Aqil Abbas "Bakı Lift-Təmir" İstehsalat Birliyinin işdən qovulan sabiq rəisi Qüdrət Şükürovun 400 milyon yeyintiyə yol verməsinə görə Maliyyə Nazirliyini günahlandırıb. O big.az-a deyib ki, əsas məsələ Maliyyə Nazirliyinin bu qədər qanun pozuntusunu görməməzliyidir.**

Sitat: "Deyilənə görə, 400 milyon yeyinti var. Maliyyə Nazirliyi deyilən bir qurum var. Həmin nazirlik ildə ən azı iki dəfə Prezident Administrasiyasından tutmuş bütün dövlət, özəl şirkətləri, hətta uşaq bağçasına qədər bütün qurumları yoxlayır. Bu gün ağıllarına gəlib ki, o, nə qədər pul yeyib? Əvvəllər onun nə qədər qanun pozuntusuna yol verdiyini görməyiblər? Görməyiblərsə, ya müfəttişlər savadsızdır, ya da nəyinsə qarşılığında göz yumublar".

A.Abbasın həmkarı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı Q.Şükürovun yol verdiyi milyonlarla yeyintilərə görə Maliyyə Nazirliyinin ittiham olunmasının əleyhinədir: "Maliyyə naziri Samir Şərifovun üzərinə bu və ya buna bənzər şəkildə haqsız hücumlar olur. Bunun tamamilə əleyhinəyəm. Azərbaycanda maliyyə sabitliyinin qorunub saxlanılmasında, maliyyə sisteminin inkişafında nazir kimi Samir müəllim üzərinə düşən vəzifəni uğurlar yerinə yetirib. Onunla məsafəli münasibətlərim var. Bu sözlərimin istərdim ki, səmimiliyinə və ciddiliyinə hər kəs inansın. Fikirlərimdə subyektiv yanaşmalar qətiyyən yoxdur və ola da bilməz. Vaxtı ilə Beynəlxalq Bankdakı yeyintiləri də Samir müəllimin üzərinə yönəltməyə çalışırdılar. Mən o zaman da dedim ki, cinayətkarı kənarda qoyub, Samir Şərifovun üzərinə gəlirlər. Büdcədən maliyyələşən qurumların maliyyədən necə doğru və düzgün istifadə etməsi səlahiyyətləri Hesablama Palatasına verilib. Onun sədri Vüqar Gülməmmədov da


**Fəzail Ağamalı:** "Qüdrət Şükürov kimi insanlara güzəşt edilməli deyil"


**Natiq Cəfərli:** "Bu işdə ən yetkili orqan Hesablama Palatasıdır"

çox böyük bir ləyaqətlə işini yerinə yetirir. Amma elə məmurlar var ki, onları bu və ya digər şəkildə diqqətdən yayındırırlar, yaxud informasiya gəlmir ki, onları yoxlamaq, fəaliyyətinə nəzarət etmək lazımdır. Ona görə də, mətbuat vasitəsilə bildirirəm ki, liftlərin Bakıda bərbad vəziyyətdə olduğu hər birimizə aydındır. Bununla bağlı yeyintiləri mətbuatdan oxuyuram. Deyirəm ki, bunların məsuliyyəti birbaşa Qüdrət Şükürovun üzərinə düşür. O şəxs bu cinayətə yol verib, pulları yeyib, övladlarına təmtəraqlı həyat qurub. Özü üçün də yüksək səviyyədə həyat qurub. İndi o bu pulu qaytarmalıdır. Eyni zamanda, Qüdrət Şükürov kimi insanlara güzəşt edilməli deyil. Bu pul xalqındır, dövlətindir, hər bir Azərbaycan vətəndaşınındır. Samir Şərifovun üzərinə yönəlmiş olan ittihamları qəbul etmirəm. Düşünürəm ki, bunlar düşünülmüş şəkildə cinayətkarın cinayətini onun üzərindən götürüb başqa istiqamətə yönəltmək cəhdidir. Bu cür yanaşmalar qeyri-obyektivdir".

İqtisadçı ekspert Natiq Cəfərli dövlətin nəzarət mexanizmlərinin olmasının vacibliyindən danışdı: "Nəzarət mexanizmi ən çox onun üçün vacibdir ki, büdcədən ayrılan vəsaitin doğru-düzgün xərclənməsinə nəzarət etsin. Bu işdə ən yetkili orqan Hesablama Palatasıdır. Qurum hər il büdcədən ayrılan vəsaitlərin doğru-düzgün xərclənməsi ilə bağlı arayışlar verir. Yoxlamaların nəticələri ictimaiyyətə açıq olmalıdır. Hesablama Palatası ictimaiyyətlə daha sıx işləməli və işində ciddi dönüş etməlidir. Siz jurnalistlərin fəaliyyəti nəticəsində dəfələrlə "Bakı Lift-Təmir" İstehsalat Birliyinin işlərindəki problemlərlə, eləcə də, liftlərin düzgün işləməməsi, tez-tez qırılması ilə bağlı kifayət qədər məlumatlar oxumuşuq. Bunun barəsində saytlarda məlumat axtarmaq istəsək, qarşımıza onlarla məlumat çıxar. Hüquq mühafizə orqanları da buna ciddi reaksiya verməli idilər. Qüdrət Şükürovun beynəlxalq korrupsiya qalmaqallarında bu şəkildə adının hallanmasına imkan verilməməli idi. Maliyyə Nazirliyi və Hesablama Palatası bu xərcləmələrlə bağlı daha ciddi nəzarət həyata keçirməli idi. Hesablama Palatası açıqlama verməlidir ki, bu illər ərzində "Bakı Lift-Təmir" İstehsalat Birliyi ilə bağlı hər hansı bir rəy verib ya yox. Mətbuatı, gündəmi daim izləyən birisi kimi yadıma gəlmir ki, bununla bağlı Maliyyə Nazirliyinin yaxud Hesablama Palatasının hər hansı bir arayışı olsun. Halbuki, qanun bunu tələb edir ki, belə yoxlamalar aparılsın, nöqsanlar aşkar olunarsa, ciddi cəzalandırılmalar olsun. Çox təəssüflər olsun ki, Azərbaycanda cəzasızlıq mexanizmi var. Bu da daha çox cinayətlər törədir. Cəzasızlıq mühiti korrupsiya hallarının və büdcə vəsaitinin cinayət yolu ilə mənimsənilməsinin həcmini artırır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Cahangir Hacıyevin arvadının 21 milyon funt xərclədiyi mağazadan reportaj

## Zamirə Hacıyeva Beynəlxalq Bankın kartlarındakı milyonları dünyaca məşhur ticarət mərkəzində necə əridib...

**- Bu boyunbağı neçəyədir?**
**- 30.000 funta.**
**- Aha, bəs onun yanındakı?...**

Bu sualı verməzdən əvvəl bir anlıq məndə boyunbağının çox da baha olmayacağı hissi yaranır, ona görə də qiyməti satıcıdan soruşmaq cürətini özümdə tapıram. Eşitdiyim rəqəmin qarşısında heç də pərt olmadığımı göstərmək üçün boyunbağının yanındakı bir neçə bilərziyin qiymətini də soruşuram. Nə yaxşı ki, bu seçdiklərim, elə də baha olmur, ən azı Zamirə xanım üçün... Cəmisi 5-6 min funt. Gözüm yenə 30 min funtluq (66 min manatlıq) boyunbağıda qalır. Elə onda boyunbağının kənarlarındakı arxa-arxaya düzülmüş brilyantlara gözüm sataşır. Satıcının cavabını indi daha da yaxşı dərk edirəm...

Bura Londonun mərkəzindəki bahalı, brend markaların "göz bəbəyi" olan "Harrods" alış veriş mərkəzidir və mən də "Cartier" adlı mağazadayam. Çoxlarınız yəqin ki, Beynəlxalq Bankın prezidentinin qaçaq xanımı Zamirə Hacıyevanın "Harrods sərgüzəştləri" haqqında oxumusunuz, eşitmisiniz. Artıq bütün Britaniya mətbuatı bundan yazır.

Zamirə xanım ilə bağlı çıxan xəbərlərdə adamın ən çox "xətrinə dəyən" məsələ isə özünə 1800 funtluq şərab bazarlığı etməsinin yazılması, bu faktın yazılacaq qədər ingilis jurnalistlərə dəyərli gəlməsi oldu. "Harrods"da elə gözucu baxdığım bir neçə şərabın qiyməti minimum 100 funtdan başlayıb, 2000-3000 funta qədər yüksəlir. Yəni mən əslində 1800 funtun şərab zirzəmisinin yenilənməsi üçün xərclənməsini lazımı qədər güclü rəqəm hesab etmirəm. Bəlkə də Zamirə xanım, elə bircə butulka şərab alıbmış özünə, məsələ mətbuatın böyütdüyü kimi deyilmiş. Yəni indi insanlar durub bircə butulka şərabın da hesabatını versin?!

Yazının bu hissəsində qısa bir haşiyə verib, "Harrods" haqqında bir neçə məsələyə aydınlıq gətirmək istəyirəm. İstəmirəm ki, siz gözəl Azərbaycan oxucularında belə bir fikir formalaşsın ki, "Harrods" Londonda ancaq imkanlıların getdiyi alış-veriş mərkəzidir. Bu formalaşmış fikir nəticəsində bəlkə siz Londona gedəsi olsanız, "Harrods"un çox bahalı, çox lüks olmasından çəkinib, ora getməkdən imtina edərsiniz və gözəl bir fürsəti qaçırasınız.



Heç də elə deyil, bunu bilin. Giriş mərtəbəsində, siz kosmetika mallarından, cürbəcür xoş ətirli parfumeriyadan ala bilərsiniz. Bunların qiyməti 30-100 funt arasında dəyişir və siz öz büdcənizə uyğun bazarlıq edə bilərsiniz. "Harrods"un giriş mərtəbəsində isə yemək, restoran, şirniyyat bölümü, ikinci mərtəbə də isə hədiyyəlik əşya bölümü var. Siz burdan Azərbaycandakı dostlarınıza 5-10 funtluq şirniyyatlardan, çaylardan, hədiyyələrdən alıb apara bilərsiniz. Əmin olun ki, o dostunuz sizə ömür boyu çox böyük hörmət göstərəcək. Axı, onlara bu hədiyyə "Harrods"dan alınıb.

Siz brend paltarlara baxıb-baxıb ah çəkməkdən yorulub, bir stəkan çay və ballı tort da yeyə bilərsiniz burdakı kafelərdən birində. Dediyim kimi, bunun üçün sizin Beynəlxalq Bankdan oğurluq etmənizə ehtiyac yoxdur. Hətta burda meyvə, tərəvəz də satılır.

Önümdəki vitrində duran portağallara baxıb fikirləşirəm: görəsən, Zamirə Hacıyeva burdan evinə bazarlıq edibmi?

"Harrods"a bir neçə addımlıq yerimə məsafəsindəki 11 milyon yarım funta aldığı evi nəzərdə tutmuram. Bakıdakı evini deyirəm. Amma heç inanmıram, Bakıda "Yaşıl bazar" dura-dura "Harrods"dan meyvə alsın.

Ümumiyyətlə isə "Buçeron" adlı brend saat-parfümeriya mağazasından bir dəfəyə 150 minlik bazarlıq etmək varkən, niyə insan meyvə-tərəvəz bölümünə getsin ki...

Ancaq inanıram ki, Zamirə xanım Londonda qaldığı günlərdə Bakıdan ötrü darıxanda gedib "Harrods"dan bir-iki kilo kürü alıb yeyib. İngiltərə mediası bunu da araşdıra bilər...

❑ **Aytən ABBASLI,**
**Xüsusi olaraq Musavat.com üçün**
**London**










YENİ MÜSAVAT
N 216 (7105) 13 oktyabr 2018

# Cavid Qurbanov dəmiryollarında böyük layihələrin anonsunu verdi

## Qəbələyə yolun çəkilməsi işləri davam edir, ölkənin bütün bölgələrinə tez və komfort şəraitdə getmək asanlaşacaq

**Oktyabrın 13-də Azərbaycan dəmiryolu işçilərinin peşə bayramı günüdür. Bu gün münasibətilə oktyabrın 12-də “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və dəmir yolu işçiləri Fəxri Xiyabanda mərhum prezident Heydər Əliyevin məzarını ziyarət edib, əklil qoyublar. Daha sonra isə dəmiryolu işçiləri Şəhidlər Xiyabanını ziyarət ediblər.**



Jurnalistlərə açıqlama verən Cavid Qurbanov son zamanlar dəmiryolu sahəsində görülən işlər və yeniliklər barəsində danışıb. C.Qurbanov bildirib ki, həm şərq-qərb, şimal-cənub dəhlizinin, həm də Bakı Dairəvi dəmiryolunun yenidən qurulması işləri gedir: “Eləcə də elektrik qatarlarının yenidən bərpası, Qəbələyə yolun çəkilməsi işləri davam edir, Bakıdan Yalamaya qədər olan hissədə isə gələn ildən tikintiyə başlanacaq. Həmçinin layihələr sırasında Şahdağa gedən dəmiryolunun proyektləndirilməsi, Lənkəranda dəmiryolunu dəniz kənarından çıxarıb, avtomobil yollarının yanı ilə gedib, bir daha yenidən Astarada birləşdirilməsi, İran tərəfdə icarəyə götürdüyümüz terminal ərazisinin işinin tam bitirilməsi, texnikaların gətirilməsi və digər bu kimi böyük işlər yer alıb. Naxçıvanda isə yollarımızın yenidən qurulması ilə məşğuluq. Ölkə başçısının verdiyi tapşırıqları yerinə yetirmək üçün bu işlərlə çox ciddi məşğul oluruq. Bakı Dairəvi dəmiryolu barəsində məlumat verərək bildirim ki, bu yolla Bakıdan Biləcəri və Xırdalan ərazisindən keçməklə Sumqayıta çatmaq 42 kilometr, əks istiqamətdə isə 47 kilometrdir. Beləliklə də dairənin tamamlanması təxminən 87-94 kilometr arasında dəyişə bilir. Elə yerlər var ki, həmin yolun istiqamətini həm yaxınlaşdıra, həm də genişləndirə bilirik. Ona görə də sonda konkret məsafəni biləcəyik. Dairəvi yolda 14 stansiya olacaq. Yol 30 minə yaxın sərnişinin daşınmasına xidmət edəcək. Burada təqribən 7 cüt qatar işləyəcək. Onların sayı arta-azala bilər. Bakıdan Sumqayıta qədər yeraltı-yerüstü keçidlərin sayı isə 20-yə yaxındır. Binədəki qəzadan sonra qərara almışıq ki, avtomobil yolu ilə dəmiryolunun eyni olduğu ərazilərdə onların birinin səviyyəsini dəyişək. Bu isə körpü və yaxud tunel vasitəsilə ola bilər. Bütün bu məsələlərin hamısına yenidən baxırıq. Yolun Sumqayıtda Sabunçuya qədər olan hissəsində artıq işlər demək olar ki, başa çatıb. Bakıdan Sabunçuya qədər olan ərazidə də işlər gedir. Demək olar ki, Sumqayıt stansiyası tam hazırdır. İlin axırına qədər istifadəyə hazır olacaq”.







Cavid Qurbanov söyləyib ki, Bakı-Gəncə qatarlarını ilin sonuna qədər istifadəyə verməyə çalışırlar: “Ölkəmiz inkişaf etdikcə, paytaxtda avtomobillərin sayının artması Abşeron yarımadasında sıxlıq yaradır. Ona görə də bunun qarşısını almaq istiqamətində işlər genişlənməlidir. Biz, Dübəndiyə qədər olan dəmir yolunu yenidən quracağıq. Cənab prezidentin axırıncı müşavirədə söylədiyi kimi ilin sonuna qədər çalışacağıq ki, Bakıdan Gəncəyə qədər sürətli qatarın açılışını təmin edək. Artıq qatarlar Bakıdadır. Qatarlar ikimərtəbəlidir və fərqlənməsi də ondan ibarətdir ki, bu qatarlarda xüsusi VİP və biznes-klasslar var. Həm aşağı səviyyəli klasslada olan vaqonlar var. Hər vaqonda quraşdırılmış soyuducular mövcuddur. Vaqonların baş tərəfində kiçik də olsa mətbəx formasında yer var. Burada ayaqüstü yeməklərin verilməsi nəzərdə tutulub. Eyni zamanda vaqonlar "wifi" ilə də təmin ediləcək. Bütün insanların rahatlığı üçün komfortlar yaradılacaq. Sürətə gəlincə isə biz artıq 159 kilometr sürəti sınaqdan keçirmişik. Qatarların maksimal sürəti saatda 300 kilometrə qədərdir. Ancaq Azərbaycan dəmiryollarının bugünkü imkanlarına görə biz onu maksimum 160 kilometr/saata qədər sınaqdan keçirə bilərik. Hələ ki yollarımızın kənarları tam bağlanmayıb və ölkənin hər yerində təhlükəsizliklə bağlı işlər görülməyib. Ona görə də sürətin bir o qədər qaldırılması mümkün deyil. Lakin get-gedə, işlər görüldükcə biz bu sürəti qaldırmağa çalışacağıq".

**Cavid Qurbanov Bakı-Lənkəran dəmiryolu barəsində isə aşağıdakıları söyləyib:** “Artıq ölkə başçısının söylədiyi kimi vəsait ayrılıb, işlər gedir. İlin sonuna qədər proyektlənmə hazırlanacaq və təmirə başlayacağıq. Ağdaş rayonundakı Ləki stansiyasından dönməklə Qəbələ rayonuna çəkiləcək dəmir yolu xətti üçün torpaq məsələsi artıq həll edilib, 20 km-lik torpaq yatağı hazırdır. Orada relyef bir qədər çətindir. Biz Zaqataladan və Balakəndən çınqıl daşımaqla yeni yol yatağının hazırlanmasi ilə məşğuluq. Bir neçə ay oradakı qoruqla bağlı problemimiz olub. Ancaq prezidentin tapşırığı ilə həmin məsələni həll etdik. O yolun maliyyəsi ayrılıb və tikintisi davam etdirilir. Turist axınının artmasını nəzərə alaraq biz gələn il çalışacağıq ki, Bakıdan turistləri Qəbələyə qatarla aparaq. Buna görə, əlavə yeni 11 elektrik qatarı, 3 dizel qatarının alınması vacibdir. İnvestisiya qoyuluşlarında bu məsələnin nəzərə alınması üçün çalışacağıq”.

**C. Qurbanov söyləyib ki, bir ilə yaxın müddətdə Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu ilə 3 minədək konteyner və vaqon daşınıb:** "Bir həftə əvvəl Gürcüstan ilə Azərbaycanın dəmiryolları şirkətləri BTQ-nin istismarı ilə bağlı təlimat imzaladı. Orada bilirsiniz ki, relyef bir qədər çətindir. Ancaq buna baxmayaraq, cənab prezidentin iradəsinə söykənərək bu yolun axıra qədər çatdırılmasını təmin etdik. Burada bəzi çatışmayan məsələlər var. Hansı ki, onlar xırda işlərdir. Məsələn, təhlükəsizliklə əlaqədar, yükün müəyyənləşdirilməsi ilə bağlı və digər bu kimi məsələlərlə bağlı da işlər aparılır. Təxminən orada 2 minə yaxın işçimiz var ki, onlardan 30 faizi azərbaycanlılardır. Hansı ki, onlar çox yüksək savada malik işçilərdir. Təxminən 500-ə yaxın da texnikamız da orada çalışır. Ərazidə stansiya və binaların tikintisi başa çatıb. Ümumilikdə, orada qızğın işlər davam edir. Növbəti il ilk olaraq jurnalistlərlə birlikdə Türkiyəyə həmin yolla səyahət edəcəyik. Bu il ərzində birinci dəfə idi ki, bütün dövrlər boyunca ən çox yol təmir edib, istifadəyə vermişik. Hal-hazırda köhnə vaqonlarda Bakıdan-Gəncəyə qədər olan ərazilərdə orta sürət 80-dən aşağı deyil. Əlavə yükdaşımalar üçün bizə vaqonlar lazımdır. Eyni zamanda sərnişin vaqonlarımızın səviyyəsinin daha yüksəyə qaldırılması vacibdir. Bunun üçün cənab prezidentə və nazirlər Kabinetinə müraciət etmişəm".

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**
**Foto: Elçin ƏKBƏROV**

YENİ MÜSAVAT
N 216 (7105) 13 oktyabr 2018

# Zamirə Hacıyevanın əmlakı Azərbaycana qaytarıla bilər

## Ekspert: "Bu, çox yaxşı presedent olacaq"

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin keçmiş sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın Londonda xərclədiyi vəsait Azərbaycana qaytarıla bilər.**

Bu barədə Böyük Britaniya Milli Kriminal Agentliyindən (NCA) bildirilib. Agentliyin İqtisadi cinayətkarlıqla mübarizə bölməsinin rəhbəri Donald Tunun (Donald Toon) sözlərinə görə, Böyük Britaniya Ali Məhkəməsi Zamirə Hacıyevanın qanunsuz vəsaitlərdən istifadə etdiyini müəyyənləşdirərsə, ondan alınaraq müsadirə olunmuş bütün əmlak və pul ölkəsinə qaytarılacaq: "Əgər Ali Məhkəmə qərara alsa ki, Zamirə Hacıyeva bu aktivləri əldə etmək üçün dələduzluq sxemlərindən istifadə edib, o zaman müsadirə edilən aktivlər onun doğma ölkəsinə qaytarıla bilər".

NCA direktoru deyib ki, mənşəyi naməlum olan pullar hesabına əldə edilmiş aktivlərin müsadirə edilməsini nəzərdə tutan qanunun ilk dəfə tətbiq edildiyi bir vaxtda müsadirə edilmiş əmlakın gələcək taleyi "siyasi və beynəlxalq məsələ" olacaq(virtualaz.org).

NCA bildirir ki, Hacıyeva bu aktivləri almaq üçün dələduzluq yolu ilə əldə olunmuş vəsaitlərdən istifadə edib. Ötən həftə London Yüksək Məhkəməsinin hakimi cənab Supperstoun Zamirə Hacıyevanın qarşısına şərt qoyub ki, həmin pulların necə əldə edildiyini əsaslandırsın. Əks halda, aktivlər müsadirə ediləcək.

Lakin cənab Toon qeyd edib ki, müsadirə edilmiş aktivlərin gələcək taleyi barədə qərar vermək "siyasi və beynəlxalq" məsələ olacaq: "Beləliklə, həmin aktivlər ilk növbədə Böyük Britaniya hökumətinin sərəncamına keçəcək, daha sonra aktivlərin taleyinə dair pulların gəldiyi ölkə ilə Böyük Britaniya arasında birbaşa danışıqlar olacaq. Əmlakın taleyi bu danışıqların nəticəsində müəyyən ediləcək.


Zamirə Hacıyeva

NCA rəhbəri deyib ki, onlar hazırda daha 8 nəfərin barəsində mənşəyi məlum olmayan pulların leqallaşdırılmasına qarşı mübarizə qanunu çərçivəsində araşdırma aparırlar. Onlar Afrika, Cənubi Asiya, keçmiş sovet respublikaları və Rusiyadan olan şəxslərdir.

Xatırladaq ki, Zamirə Hacıyeva ərinin Beynəlxalq Banka rəhbərlik etdiyi vaxtda Londonda alış-verişə 16 milyon funt sterlinq xərcləyib, habelə Londonun Naytsbric kvartalında özünə beş yataq otağına malik, 15 milyon funt sterlinq dəyərində malikanə, Askot yaxınlığında 10.5 milyon funt sterlinqə qolf-klub və şəhərətrafı "Mill Ride" klubu alıb.

BBC-nin məlumatına görə, Z.Hacıyeva 10 il ərzində Londonun ən məşhur univermağı olan "Harrods"da 16 milyon funt sterlinq xərcləyib. O, həmçinin univermağın yaxınlığında lüks ev, 42 milyon dollar dəyəri olan "Gulfstream G550" özəl təyyarə alıb.

**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu** sabiq məmur arvadının Böyük Britaniyadakı xərcləmələri barədə maraqlı bir müqayisə aparıb: "Zamirə Hacıyevanın gündəlik xərcləmələri son 10 ilin hər saatında 1126 manat olub.

Məmur xanımının orta hesabla 1 saatda xərclədiyini Azərbaycan müəllimi 4 ayda, həkimi isə 6 ayda qazanır.

Qlamur dəbdəbə, cah-cəlal, cazibə mənasında işlədilir. Belə yaşayışla adətən şou-biznesin məşhurları tərənnüm olunur və lovğalanırlar. Bu təbəqəyə Ərəb şahzadələrindən sonra Azərbaycan məmurlarının ailə üzvləri də əlavə olunub. Amma bütün dünya ondan danışır, dünən iştirakçısı olduğum söhbətdə ildə 150-200 min dollar qazanan professorların təəccüblü baxışları ilə qarşılaşmasaydım, yəqin ki, Zamirə Hacıyevanın Azərbaycanı dünya mətbuatında diqqətə gətirən xərcləmələri barədə yazmazdım".

Qeyd edək ki, Böyük Britaniyada 2017-ci ildə qəbul edilmiş "Kriminal maliyyələşdirmə haqqında" qanuna əsasən, Britaniya hökuməti var-dövlətin aydın olmayan mənşəyi haqqında sorğu (Unexplained wealth orders, UWO) göndərmək hüququna malikdir, 50 min funt sterlinqdən artıq gəlir əldə edilməsinə dair aydın izahın olmaması isə aktivlərin dondurulmasına səbəb ola bilər. Bu qanunun ilk olaraq məhz Z.Hacıyevaya tətbiq olunması bu prosesdə Azərbaycan hakimiyyətinin rolu olmasına ciddi əsaslar yaradır.

**İqtisadçı-ekspert Natiq Cəfərli**nin sözlərinə görə, hər bir dövlətin başqa dövlətə öz ərazisindən çıxarılan vəsaitlərlə bağlı sorğu göndərmək hüququ var: "Görünür ki, Azərbaycan hökuməti də Zamirə Hacıyeva ilə bağlı Böyük Britaniya hökumətinə sorğu göndərib. Bu sorğudan sonra onun haqqında fəaliyyətlər başlanıb. Lakin düşünmürəm ki, onun əmlakının Azərbaycana qaytarılması asan başa gələcək. Bunun üçün çox ciddi və güman ki, uzun müddət tələb edəcək hüquqi prosedurlar olmalıdır. Azərbaycan dövləti bacarıqlı vəkillər tutmalıdır ki, onun adından həmin əmlakın burada qeyri-qanuni yollarla əldə olunmuş vəsait hesabına alındığını sübut etsinlər. O vəkillər anqlo-sakson hüququnu gözəl bilməli, vəsaitlərin korrupsiya yolu ilə əldə olunduğunu isbatlayan faktları əsaslandırmağı bacarmalıdırlar".

Ekspertin fikrincə, Z.Hacıyevanın əmlakı Azərbaycana qaytarılarsa, bu, digər məmurlarla bağlı da əlverişli presedent yaratmış olacaq: "Bu, digər məmurlar üçün bir nümunədir. Onların da hər hansı yerdə qeyri-qanuni əldə olunmuş vəsaitlər hesabına əmlakı, mülkü varsa, onlarla bağlı da Azərbaycan dövləti istədiyində belə prosedurlar başlada bilər. Bu, çox yaxşı bir presedent olacaq".

Böyük Britaniya çoxsaylı ofşor ərazilərə malik, dünyanın hər yerindən qanunsuz yollarla qazanılan irihəcmli vəsaitlərin yerləşdirildiyi bir ölkə kimi tanınır. Yuxarıda qeyd olunan qanunun qəbulu və icrası bu vəsaitlərin Böyük Britaniyadan çəkilməsinə gətirib çıxara bilərmi?

N.Cəfərlinin sözlərinə görə, Böyük Britaniyaya məxsus ofşor zonalarda dünyanın hər yerindən insanlar, şirkətlər çirkli pulların yuyulması, vergidən yayındırılan məbləğlərin saxlanması məqsədilə istifadə edirlər: "Son illərdə dünyada bu ofşorlardakı gizli hesabların açıqlanması, qaranlıq maliyyə əməliyyatlarının aşkara çıxarılması ilə bağlı proses başlayıb. Böyük İyirmilik ölkələrinin toplantısında da bu məsələ müzakirə olunub, gizli maliyyə əməliyyatlarının açıqlanması ilə bağlı müəyyən qərarlar qəbul olunub. Böyük Britaniya bu qərarlara tabe olmağa həvəsli görünür. Buna görə də Z.Hacıyevanın əmlakının araşdırılmasına imkaan verən qanun qəbul olunub. Düzdür, Latın Amerikasındakı ofşorlar, xüsusilə də Panama bu qərarla razılaşmır, onun icrasından imtina edir. Bu da təbiidir, çünki Panamanın son 20 ildəki iqtisadi yüksəlişi məhz həmin çirkli pulların ölkəyə axını ilə bağlıdır. Lakin düşünürəm ki, zaman keçdikcə, bütün ofşorlarda şəffaflaşma prosesi başlayacaq. Bu, bütün dünyada müşahidə olunan trenddir, kiminsə oradan kənarda qalması real deyil. Böyük Britaniyadakı prosesin böyük vəsaitlərin bu ölkədən çıxarılmasına gətirib çıxarması ehtimalına gəlincə, burada ciddi çətinliklər ola bilər. Çünki söhbət milyardlarla dollarlıq vəsaitlərdən gedir, onları çıxarıb haradasa yerləşdirmək çox çətin bir proses olar. Bu baxımdan, düşünürəm ki, vəsait sahibləri onları əldə etmək yollarına dair sübutlar yaratmağa daha çox üstünlük verəcəklər, nəinki ölkədən çıxartmağa".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Mühacir vətəninə nə zaman təhlükəsiz dönə bilər?

## Əlövsət Əliyev: "Qaçqın statusu alan şəxs ölkəsinin himayəsindən imtina edən şəxsdir"

**Litvada mühacir həyatı yaşayan müsavatçı Azad Həsənov atasının səhhəti ilə bağlı Azərbaycana dönüb və burada həbs olunub. A.Həsənovun həbsi mühacirlərin məsuliyyəti məsələsini yenidən aktuallaşdırıb.**

Mühacirlərin hansı hallarda həbs təhlükəsi olmadan vətənlərinə dönmək hüquqlarının olduğu, eləcə də, neçə ildən sonra bu hüquqa yiyələndikləri gündəmə gəlib.

**Miqrasiya hüququ üzrə ekspert Əlövsət Əliyev** "Yeni Müsavat"a bununla bağlı deyib ki, mühacirlərin statusu bütün Avropa ölkələrində qaçqın statusu 1951-ci il konvensiyasının prinsiplərinə uyğun hazırlanmış milli qanunvericiliklər əsasında həll olunur: "1951-ci il konvensiyasına görə irqi, dini əlamət, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubiyyət və ya siyasi əqidə üzündən təqib qurbanı olmaq barəsində tam əsaslı ehtiyatlara görə vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya bu cür ehtiyatlar üzündən istifadə etmək istəməyən şəxslər qaçqın hesab edilir. Müsavatçı gənc-siyasi mühacir Azad Həsənlinin qaçqın statusu alması haqqında məlumatı oxudum. Baş verənlərə çox təəssüf edirəm. Qaçqın statusu alan şəxsə verilən sənəddə birbaşa qeyd olunur ki, şəxs vətəndaşı olduğun ölkənin himayəsindən istifadə edə bilməz. Şəxs daimi yaşamaq hüququ alana və ya barəsində ehtimal olunan problem aradan qalxana kimi vətəndaşı olduğu ölkəyə getməli deyil. Qaçqın statusu alanlar və ya müraciət etdiyi


Əlövsət Əliyev

ölkədə qorunma hüququ tanınanlar bunu etməli deyillər. Müvəqqəti yaşamaq hüququnun əldə olunması qaçqın statusu ilə bağlıdırsa, bu şəxsə vətəndaşı olduğu ölkəyə getmək və qayıtmaq hüququ vermir. Qaçqın statusu alan şəxs ölkəsinin himayəsindən imtina edən şəxsdir. Azərbaycana Azərbaycan pasportu, qayıdış şəhadətnaməsi, şəxsiyyət vəsiqəsi əsasında qayıtmaq isə ölkənin himayəsindən istifadə etmək hesab olunur. Ölkəsinin himayəsindən istifadə edən şəxs isə dərhal ona qaçqın statusu verən ölkənin himayəsindən məhrum olur. Yeni Azərbaycanda ölkə vətəndaşının Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən əsaslı həbsi heç bir etiraza səbəb ola bilməz. Lakin saxlanılan şəxsə münasibətdə insan hüquq və azadlıqlarının pozulması hallarına yol verilirsə, buna təbii ki, etirazlar olacaq. Şəxs ölkəsində onunla bağlı həbs təhlükəsi aradan qalxandan sonra vətəninə qayıtmalıdır. Xarici ölkənin vətəndaşlığını alandan sonra, təbii ki, şəxs həmin ölkənin himayəsinə keçir və həmin ölkə öz vətəndaşının müdafiə etməlidir. Müsavatçı isə hələ ki Azərbaycanın vətəndaşıdır. Konvensiyanın tələbinə görə aşağıdakı hallar qaçqın statusunun ləğv olunmasına əsasdır:

1) O, vətəndaşı olduğu ölkənin himayəsindən yenidən könüllü istifadə etdikdə;

2) Öz vətəndaşlığından məhrum olub yenidən onu könüllü əldə etdikdə;

3) Yeni vətəndaşlıq əldə etdikdə və yeni vətəndaşı olduğu ölkənin himayəsindən istifadə etdikdə;

4) Təqibdən ehtiyat etdiyinə görə tərk etdiyi və ya hüdudlarından kənarda qaldığı ölkədə yenidən könüllü məskunlaşdıqda;

5) Qaçqın kimi tanınmasına əsas vermiş hallar artıq mövcud olmadığına görə vətəndaşı olduğu ölkənin himayəsindən daha imtina edə bilmədikdə.

Lakin qanunda bir müstəsna hal da mövcuddur. Əgər qaçqın, daha dəqiq müsavatçı gənc vətəndaşı olduqları ölkənin himayəsindən imtina etmək üçün əvvəlki təqiblərdən irəli gələn kifayət qədər əsas gətirə bilirlərsə, bu bəndin müddəaları onlara tətbiq olunmur, inanırıq ki bu halda da elə olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# İzah edilməmiş sərvət

Zamin HACI
zaminhaci@gmail.com

"Elə hey qəzet yazırsan, kişi, bircə mətləb anna!
Əməlin gör əğniyanın, yeri varsa, sonra danna!
Pulunu fəqirə versin, bəs acından ölsün Anna?
O məgər ki, Xansənəmdir, qapılar dolanə, ya rəb?!"

*(Mirzə Ələkbər Sabir)*

**Londonda bizim köhnə bankirlərdən birinin arvadını axtarırlar, ingilis hökuməti ondan soruşmaq istəyirmiş ki, orada milyonlarla dollar dəyərində evi, qolf klubunu, təyyarəni hardan alıbdır, bundan başqa hər dəfə məşhur "Harrods" univermağına (biz sovet adamıyıq, supermarket, butik-zad bilmərik) girəndə mənasız "şmotkalara", əski-üsküyə, cır-cındıra pulları hansı mənbədən xərcləyibdir. Guya ingilislər, nəhayət, asqırıb ayılıblar, indi orada qanunsuz, gizli, korrupsiya, oğurluqla əldə edilən sərvətləri araşdırırlar. Ay-hay... Biz də inandıq. Üstəlik, qarı dükanı şey eləyəndən, qapı örtüləndən sonra bu araşdırma kimə lazımdır? Lap sən o milyonları toparlayıb qaytardın Azərbaycana. Biz bəyəm onu istəyirik? Biz başqasının pulunu saymırıq. Yenə Sarı gəlin mahnısından, dolmadan, nə bilim, armud ağacından filandan olsa oğurlanması bizi yandırar, dərhal ayağa qalxardıq. Pul aparıb, əcəb eləyib. Dövlətin malı dənizdir, onu yeməyən donuzdur. Sözgəlişi, bu ifadə mənim yadımda "Azpetrol"un şefi Rafiq müəllimin məhkəməsindən qalıbdır. Rafiq müəllim bu türk məsəlini niyə çəkmişdi, ta orasını xatırlamıram. Əsas odur insandan yadigar sözlər qalsın. Şair demişkən: "De gəlsin hər nəyin vardır, Yığılan pul yadigardır". Misal üçün, elə bu, necə deyərlər, ingiliscə sözü gedən bankir arvadını bir vaxtlar oğurlayıb girov saxlayan rəhmətlik polkovnik Hacı Məmmədovdan da cəmiyyətimizə bu qanadlı ifadə yadigar qalmışdır: "Mən sprutun bir qoluyam". Yazıq polkovnik... Yemədi getdi. İndi ruhu küləkli Bakı səmalarında dolaşıb əski MTN şefi Eldar müəllimin qarasıyca deyinir: "İmkan versəydiniz, o vaxt bu arvadın əvəzinə kalan pul alardım, bəlkə ingilisin dilinə düşməzdik".**

Sözgəlişi, həmin əhvalatdan hardasa 7 il sonra Eldar müəllim Cahangir müəllimin qızını oğluna almışdı, aeroport yolundakı məşhur "Buta" şadlıq sarayında 7 gün 7 gecə toy çalınmışdı, atəşfəşanlığın səsi isə bəlkə Londona çatmışdı. Yəni, belə çıxırdı Hacı müəllim həm də xoşbəxt bir ailənin təməlini qoymuşdu. Rəhmətliyin elənçik xeyirxah əməlləri çox olmuşdu, nə qədərini "Qarabulaq" istirahət mərkəzində basdırmışdı ki, camaatın xəbəri olmasın. Axı məsəl var, deyir, sağ əlin verdiyini gərək sol əl bilməsin. Doğrudan da Hacı müəllim girovların barmağını-zadını kəsib qohumlarına göndərəndə bunu bilən olmurdu. Nəsə, temadan uzaqlaşmayaq, yoxsa bizim də barmaq ara yerdə gedər.

Tema isə xaricə daşınan oğurluq pullardır. İngilislərin təzə qayırdığı qanunun məzəli də adı varmış: "İzah edilməmiş sərvət sərəncamı". Bir az açsaq, bu qanuna görə sən Britaniyada nəsə yekə bir şey alsan gərək həmin pulu hardan əldə elədiyini də göstərəsən, izah edəsən. Qanuni mənbə göstərə bilməsən, dövlət basır o pulu-malı sənin əlindən alır. Bir az o əski "Şərikli çörək" kinomuzda lüt arvadların şəklini göstərib pul yığan tipin əhvalatını xatırladır: "İzahlı üç manat, izahsız iki manat. Baden Badenin mavi gecələri... Şəhərin adı Jeneva, gözəlin adı Jenevyeva". Sadəcə, mətndə yüngülvari dəyişiklik edib tək fransız xalqının yox, həmçinin ingilis xalqının da bizim pullarla kef elədiyini demək lazımdır.

Əlbəttə, yenə yuxarıda yazdığımız izahata qayıtsaq, malını yeməyənin malı yeyiləcəkdir. Millət gərək öz sərvətinin qədrini biləydi. Ancaq bilmir. Dünən Suraxanıdan şikayət vardı, deyir, evlərimizin içindən, kanalizasiya xətlərindən neft çıxır. Çimə bilmirik, uşaqlar qusur, iydən başımız ağrıyır və sairə. Ay avam millət... Neftdən də qusarlar? Neft öz ayağı ilə hamamına gəlib, buyur çim da bə. Bunun barreli London birjasında heç bilirsən neçəyədir? Bilmirsən. Çünki savad ora qədər deyil. Səninki odur elə bankirin arvadının çırpışdırdığı pulların saatda neçə manat olduğunu hesablayasan. Onu da ingilis qəmiş qoyandan sonra. Yoxsa özümüzə qalsa kimin yadına düşürdü? Bu millət tarixi boyunca oğruları ilə fəxr eləmişdir. Onlara oxşamağa çalışmışdır. Hələ sən ata sözünə bax: "Tutulmayan oğru, xandan-bəydən doğru". Fantastikadır. Deyir, nə eləyirsən elə, bircə tutulma.

**İzahedilməz millətik.**




# Trampın adamı Bakıya xüsusi təkliflə gəlir - Qarabağ və...

## ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri gələn həftə regionda olacaq; **Qərbdən Azərbaycana güclənən emissar axınının səbəbi:** tufanqabağı "nəbz" yoxlanışı, yoxsa? Ermənistan daha qəliz durumla üz-üzə...

**ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri, xarici siyasətdə sərt xətt tərəfdarı kimi tanınan Con Boltonun Rusiyaya və Güney Qafqaz ölkələrinə səfərinin tarixi məlum olub. Bu barədə Bolton özünün tvitter hesabında yazıb.**

"Oktyabrın 20-də mən öz həmkarlarım və digər yüksək vəzifəli şəxslərlə təhlükəsizlik sferasında Amerikanın maraqlarının irəli aparılması məqsədi ilə görüşlər keçirmək üçün Rusiyaya, Azərbaycana, Ermənistana və Gürcüstana səfər edəcəyəm" - Bolton qeyd edib.

Xatırladaq ki, uzun illər BMT-də ABŞ-ın nümayəndəsi olmuş Con Bolton xüsusən də İrana qarşı aqressiv mövqeyi ilə seçilir. Onun bölgəyə səfəri barədə isə ilk dəfə olaraq, bir neçə gün əvvəl erməni politoloqlardan biri məlumat yaymışdı. Amma rəsmi mənbələr onu təsdiqləməmişdi.

*Bəs özünün dediyi kimi böyük bir heyətlə gəlməyə hazırlaşan ABŞ milli təhlükəsizlik müşavirinin səfərində əsas hədəf nədir?*

*****

"Boltonun Qafqaz səfəri İrəvanda bir neçə aylıq siyasi qarışıqlıqdan sonra Dağlıq Qarabağ məsələsinin Ermənistan tərəfi ilə həllinə cəhd kimi qiymətləndirilə bilər". Axar .az xəbər verir ki, bu sözləri ABŞ-ın Qulf Analitik Mərkəzinin politoloqu, doktor Teodor Karasik Con Boltonun Qafqaz səfərini şərh edərkən deyib.

Onun sözlərinə görə, Bolton Azərbaycanın geosiyasi əhəmiyyətinin böyüklüyünü nəzərə alaraq, Bakının mövqeyini gücləndirməyə çalışır: "Rusiya, əlbəttə ki, ABŞ milli təhlükəsizlik müşavirinin hazırda nə təklif edə biləcəyini görmək üçün baş verənləri diqqətlə izləyir. Şübhəsiz ki, Boltonun səfəri eyni zamanda İrana qarşı sanksiyaları gücləndirmək məqsədi daşıyır. Boltonun səfərinin mahiyyətindən biri də bu ölkələri İran sanksiyalarına razı salmaqdır".

Ancaq Azərbaycanın əsas problemi Qarabağ məsələsi, Ermənistanla münaqişədir. Bakı illərdir özünün balanslı xarici siyasət kursunu öncəliklə bu məsələdəki maraqları göz önünə almaqla qurur. O cümlədən İranla, Rusiya ilə münasibətlərdə Qarabağ mövzusu xüsusi ağırlığını saxlayır və konfliktin həllində real irəliləyiş olmayınca saxlamaqda davam edəcək. Bu mənada Boltonun Bakı səfərini gələn ay Tehrana qarşı ən sərt sanksiyaları tətbiq etməyə hazırlaşan ABŞ tərəfindən tufanqabağı "nəbz" yoxlanışı da saymaq olar?

*****

Maraqlıdır ki, ötən ayın 21-də ABŞ prezidenti Donald Tramp Ermənistan rəhbərliyinə müstəqillik günü ilə bağlı göndərdiyi təbrik məktubunda yaxın ayların Dağlıq Qarabağ məsələsi üçün "məhsuldar" olacağını qeyd eləmişdi. Çox keçməmiş ABŞ Dövlət Departamentinin rəsmisi, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent Bakıda oldu.

Bir neçə gün qabaq paytaxtımıza gələn və prezident İlham Əliyev tərəfindən qəbul edilən Kent Dağlıq Qarabağla bağlı ölkəsinin mövqeyini ifadə elədi. Bildirdi ki, Birləşmiş Ştatlar Ermənistanın aqressiv siyasətini və Azərbaycanın ərazi bütövlüyünün bərpasına qarşı təbliğati addımlarını qəbul etmir. "ABŞ Dağlıq Qarabağın müstəqilliyini tanımır və Azərbaycanın bu regionunu heç vaxt başqa adla adlandırmayacaq" deyən dövlət katibinin müavininin köməkçisi həmçinin Vaşinqtonun ATƏT-in Minsk Qrupunu formatına və bu format çərçivəsində hazırlanmış nizamlama formullarına sadiq olduğunu bəyan elədi. "Dağlıq Qarabağ konflikti BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və "Madrid prinsipləri" əsasında həll olunmalıdır" dedi.

Bundan öncə isə NATO baş katibinin müavini, xanım Rouz Qotemüller Bakıda olmuş, Qarabağla bağlı Azərbaycanın xeyrinə prinsipial mövqe sərgiləmişdi. İndi isə daha yüksək çinli ABŞ rəsmisi - Bolton çox keçməmiş Azərbaycana, bölgəyə gəlir.

Belə intensivləşən səfərlər, sözsüz ki, regionun, özəlliklə də Azərbaycanın Vaşinqton üçün, Qərb üçün artan önəmindən xəbər verir. Eyni zamanda bu, qarşıdakı dönəmdə ABŞ-Rusiya, Qərb-Rusiya, ABŞ-İran münasibətlərində kritik bir mərhələnin yaxınlaşdığının xəbərçisi sayıla bilər. Deməli, Bakı üçün də hansısa seçimlər təklif oluna bilər. Bir şey yəqindir ki, həmin seçimlər Azərbaycan tərəfindən ilk növbədə ölkəmizin ərazi bütövlüyü və suverenliyi kontekstində dəyərləndiriləcək...

*****

Bu mənada əslində qat-qat qəliz durumda olan region ölkəsi məhz işğalçı Ermənistandır. Sirr deyil ki, düşmən ölkədə bu ilin mayında ABŞ-ın gizli dəstəyi ilə reallaşan "məxməri inqilab"dan sonra Paşinyan hökuməti Rusiya ilə ABŞ arasında qalıb. Təhlükəli "iki stulda oturmaq" siyasətini davam etdirmək isə get-gedə çətinləşir. Üstəlik, indi İranla bağlı İrəvana təzyiqlər ola bilər. Rusiya və İran isə acından ölən, blokada şəraitində olan Ermənistan üçün həyati vacib iki ölkədir.

Bu arada qərbyönlü Ermənistan hökumətinin Moskva ilə əlaqələri sərinləşməkdə davam edir. Bu da növbəti fakt: "Rus NATO-su" sayılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Parlament Assambleyasının iclasının 30 oktyabrda Ermənistanda planlaşdırılan görüşü ləğv edilib. Belə ki, görüşün başqa üzv ölkədə keçirilməsi haqda qərar qəbul edildiyi məlum olub. Qurumun bu addımı KTMT baş katibi Yuri Xaçaturova qarşı cinayət işinin qaldırılması və Nikol Paşinyanın bir müddət əvvəl öz tərəfdarları ilə parlamenti mühasirəyə almasına görə atıldığı deyilir.

**Belə görünür, Rusiyanın pressinqi azmış kimi, indi də ABŞ öz emissarı vasitəsi ilə işğalçını İranla bağlı seçim qarşısında qoya bilər...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Amerika rəsmilərinin Azərbaycana ard-arda səfərlərinin səbəbi

## Yeganə Hacıyeva: "Azərbaycanın ABŞ üçün əhəmiyyəti sürətlə artır"

**Oktyabrın 10-da ölkəmizdə səfərdə olan ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kentin ardınca ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri, xarici siyasətdə sərt xətt tərəfdarı olan və xüsusən İrana qarşı aqressiv mövqeyi ilə tanınan Con Bolton Rusiyaya və Cənubi Qafqaz respublikalarına səfərinin tarixi açıqlanıb. Səfərin bu ayın 20-də olacağı bildirilir.**

ABŞ-dan ölkəmizə bu cür yüksək ranqlı rəsmilərin ard-arda səfərləri Vaşinqton-Bakı münasibətlərində bir müddət öncə müşahidə olunan problemlərin aradan qalxması və Azərbaycanın əhəmiyyətinin artması deməkdirmi?

**Siyasi ekspert Yeganə Hacıyeva** "Yeni Müsavat"a şərhində bildirdi ki, hazırda ABŞ-la münasibətlərdə, regional və qlobal yanaşmada iki dövlət arası qarşılıqlı əlaqələrdə narahatedici fikir ayrılığı mövcud deyil: "Azərbaycanın regionda ABŞ üçün əhəmiyyəti sürətlə artmaqdadır. Ölkəmizin əhəmiyyətinin artması bəzi məsələlər var ki, onların təbii olaraq yoluna düşməsinə təsir göstərir. Azərbaycan Amerika Birləşmiş Ştatları üçün böyük əhəmiyyətə malik ölkədir. Vaşinqtonun Rusiya və İranla əlaqələrinin gərgin olması fonunda, Azərbaycanın əhəmiyyəti daha da artır. Azərbaycan Birləşmiş Ştatlar üçün həm transit ölkə, həm də neft-qaz ixracatçısı kimi əhəmiyyət daşıyır. Azərbaycan rəsmi Vaşinqtonun həm də terrorizm əleyhinə mübarizədə yaxın tərəfdaşıdır. Birləşmiş Ştatlar rəsmi Bakının Əfqanıstana verdiyi dəstəyi yüksək qiymətləndirir. Bu həftə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin köməkçisi Corc Kentin Bakı səfərində qapalı və açıq müzakirələrdə regional təhlükəsizlik, Qarabağ münaqişəsi və ikitərəfli əlaqələrin yeni prespektivləri müzakirə olunmuş, Azərbaycanın strateji Cənubi Qafqaz regionda təhlükəsizliyin təminatı və möhkəmləndirilməsi istiqamətində fəaliyyəti, Azərbaycan hökumətinin bu məsələlərdə göstərdiyi dayanıqlı səyləri ABŞ tərəfindən yüksək qiymətləndirilməsi və həmçinin çağdaş qlobal beynəlxalq münasibətlərdə, dövlətlərin enerji faktorundan "siyasi silah" kimi istifadə olunduğu bir zamanlarda Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsi ilə Avropaya enerji resurslarının nəqlinin diversifikasiyasının təminatında oynadığı rol, ölkəmizin dayanıqlı və güvənli tərəfdaş kimi özünü doğrultması ABŞ tərəfindən yüksək qiymətləndirilməsi qeyd olundu. Con Boltonun gözlənilən səfərinə gəlincə, səfər zamanı mümkün müzakirələr əlbəttə İrana qarşı sanksiyalar və bu sanksiyaların Cənubi Qafqaz ölkələri üçün mümkün nəticələri ətrafında baş tutacaq. ABŞ artıq bir neçə transmilli Rusiya şirkətlərinə, bu şirkətlərin rəhbərliyindəki məmur və biznesmenlərə qarşı sanksiyalara rəğmən, İranla əməkdaşlığa görə sanksiyalar tətbiq edib. Bu sanksiyaların Cənubi Qafqaz ölkələrindən Ermənistan tətbiqi müzakirə mövzusudur. Boltonun səfərinin digər əsas məqsəd kimi İran və Suriyanın siyasəti ilə bağlı vəziyyətin Rusiya və Cənubi Qafqaz ölkələri ilə müzakirəsi, Rusiyanı və Cənubi Qafqaz ölkələrini İran və Suriyanı dəstəkləməkdən və əməkdaşlıqdan çəkindirməyə cəhd ətrafında baş verəcək".



**Corc Kentin ardınca Trampın İrana qarşı aqressiv mövqeyi ilə tanınan müşaviri Con Bolton regiona gəlir**

**Ekspert Azərbaycana səfər zamanı həmçinin hərbi-texniki əməkdaşlıq və Yaxın Şərqdəki proseslərdə humanitar sahədə əlaqələrin də inkişaf etdirilməsi, Suriya müharibəsinin yekun mərhələsində terrorçuların ətraf regionlara sızmasının qarşısının alınması kimi təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılacağı ehtimal edilir.**

**❑ ETİBAR, "Yeni Müsavat"**

# "Qarabağ naminə Rusiya ilə müəyyən razılaşmaya getməliyik"

## AMİP-in sədr əvəzi Arzuxan Əlizadə: "Paşinyanın hakimiyyəti uzun sürməyəcək"

**"Ermənistanda hadisələrin gedişi onu deməyə əsas verir ki, dekabrda keçiriləcək parlament seçkilərində Nikol Paşinyanın partiyası və tərəfdarları çoxluq əldə edəcəklər. Lakin bu, o demək deyil ki, Paşinyan bununla da hakimiyyətinin ömrünü uzadıb, təhlükəsizliyini təmin etmiş olacaq. Paşinyanı bir müddət sonra devirəcəklər".**



Bu barədə "Yeni Müsavat"a açıqlamasında Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticələrinin Qarabağ məsələsinin həllinə mümkün təsirlərindən danışan **AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** deyib. Onun sözlərinə görə, Ermənistanda hakimiyyət dəyişikliyində, keçiriləcək seçkilərdə bizi maraqlandıran əsas məqam erməni tərəfinin Dağlıq Qarabağa yönəlik siyasətdə hansı addımları atacağı ilə bağlı gözləntilərdir: "Paşinyanın hakimiyyət olimpinə qalxdığı ilk vaxtlarda bir çoxları Dağlıq Qarabağın işğalına bilavasitə rəhbərlik etməklə Ermənistanda hakimiyyətə yiyələnmiş Köçəryan-Sərkisyan cinayətkar cütlüyündən fərqli olaraq, onun qərbyönümlü siyasət yürüdəcəyi, problemin kompromis həll variantına üstünlük verəcəyi ilə bağlı proqnozlar verirdilər. Lakin o, hakimiyyətə gələn kimi populist çıxışları ilə müharibə ritorikasına üstünlük verdiyini nümayiş etdirdi. Baş nazir kimi ilk səfərini Dağlıq Qarabağa etdi, ardınca oğlunu Azərbaycanın işğal altında olan torpaqlarına əsgər kimi xidmət keçməyə göndərdi və Dağlıq Qarabağı Ermənistana birləşdirməyin vacibliyini vurğulamağa bağladı. Bütün bunlar bir daha onu göstərir ki, Ermənistanda kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq, bu qüvvə istər qərbyönümlü ya rusiyameyilli olsun, erməni xisləti, erməni siyasəti dəyişməz olaraq qalacaq. Lakin onu da nəzərə almalıyıq ki, Paşinyan hakimiyyəti çox sürməyəcək. Çünki Rusiya Qərbin xeyir-duası ilə hakimiyyətə gələn birinin özünün Qafqazda əsas forpostu olan Ermənistanda hakimiyyətdə uzun müddətli güclənməsinə imkan verməyəcək və müxtəlif üsullarla bunun qarşısını almaqa çalışacaq. Paşinyanın hakimiyyətdən salınması prosesində isə Ermənistan siyasi mühitində xaos ola biləcəyi gözləniləndir və bizim həmin dövrə hesablanmış variantlarımız olmalıdır. Erməni tərəfi 1993-cü ildə Azərbaycanda hakimiyyət dəyişikliyi ərəfəsindəki vəziyyətdən, qarışıqlıqdan Rusiyanın dəstəyi ilə necə məharətlə istifadə edərək torpaqlarımızı işğal etdisə, biz də yaranacaq əlverişli mühitdən eyni məharətlə yararlana bilərik. Bu məqsədlə Rusiya ilə də müəyyən razılaşmalara getmək, hətta Paşinyanın hakimiyyətdən kənarlaşdırılması prosesinə təkan vermək üçün şimal qonşumuzla müştərək addımlar da atmaq olar. Amalımız torpaqlarımızı işğaldan azad etməkdir və bunun üçün bütün imkanlardan istifadə edilməlidir".

**❑ E.SEYİDAĞA, "Yeni Müsavat"**

# Elindən gen olan, genində el sevgisi olmayan nursuz...



**Xalid KAZIMLI**

**Bir neçə gün öncə belə bir hadisə oldu: xəbər tutduq ki, erməni mediası bir ay öncə vəfat etmiş dostumuzdan, şücaətli polis rəisi Novruz Həsənovdan yazıb, qəzetimizdə gedən materiallardan sitat gətirib.**

Ermənilərin bu mövzuda yazmasının əsas səbəbinin Türkiyədən gəlmiş "bozqurd"ların Qarabağ müharibəsində iştirakına vurğu salmaq olduğu açıq-aydın görünürdü.

Həmin məqalənin sonunda erməni bloqçu bu materialları tərcümə edərək onlara göndərdiyinə görə azərbaycanlı Elnur Nəcəfzadəyə təşəkkürünü bildirirdi.

Bu, o demək idi ki, Nəcəfzadə soyadlı adam Azərbaycan dövlətinə qarşı istifadə olunması nəzərdə tutulan materialları ermənilərə ya satıb, ya da peşkəş edib.

Qısa bir araşdırma apardıq və məlum oldu ki, Elnur Nəcəfzadə ölkənin tanınmış ailələrindən birində - xalq rəssamı, "Şöhrət" ordenli Kamil Nəcəfzadə və onun xanımı Meginin ailəsində dünyaya gəlib.

Ötən əsrin 90-cı illərində ölkəni tərk etmiş Elnurun barəsində verilən daha təfsilatlı bilginin müəllifi yazıçı Ələkbər Əliyevin sözlərinə görə, o, hələ illər öncədən virtual aləmdə Azərbaycana qarşı mübarizə aparırmış.

Baxaq, görək, onun mübarizəsi nədən ibarətdir? Adam iddia edir ki, Qarabağ məsələsində, ümumiyyətlə, heç bir məsələdə azərbaycanlılar haqlı deyil. O, hətta Naxçıvanın da erməni torpağı olduğunu iddia edir.

Bu, artıq "ermənidən artıq erməni olmaq" cəhdidir, buna şübhə yoxdur. Bəs bir həmvətənimizin bu sayaq mövqe tutmasının səbəbi nədir?

Bu şəxs müxalifətçi olmayıb, deyək ki, hansısa seçkilərdə qalib gəlib, mandatını verməyiblər, incik düşüb. Hətta elə bir şey olsaydı da, adam, prinsipcə, ölkəni idarə edən hakimiyyət komandasından incik olmalıydı, bütövlükdə, dövlətdən və xalqdan yox.

Heç onun hansısa dönəmdə hüquq-mühafizə orqanları ilə problemi də olmayıb, həbsə düşməyib, təqib edilməyib, əmlakı müsadirə olunmayıb və sair və ilaxır. Bunlar da heç kəsə "Qarabağ da ermənindir, Naxçıvan da" demək haqqı vermir.

Bəs nə vadar edir ki, daima dövlətdən və xalqdan böyük hörmət görmüş bir sənətkarın ailəsində böyüyən bir şəxs qəlbində öz millətinə qarşı bu qədər kin və nifrət daşıyır?

İndi belə bir iddia var ki, onun anası erməni millətindəndir və özünün həyat yoldaşı da erməni qızıdır.

Bax, əsas məsələdə məhz buradadır. Nədən qarışıq nikahlardan doğulan insanlarımız məhz o tərəfə çəkirlər? Niyə anaları erməni olan şəxslər mütləq nə vaxtsa öz dayılarına qahmar çıxırlar, əmilərinə yox?

Görünür, bəzi genlər dominantlıq təşkil edir və bəlli bir yaşdan sonra insanların ədalətli olmaq, sağlam düşünmək qabiliyyətini əlindən alır.

Tutaq ki, heç bu mövzuda yazan bir azərbaycanlı, hətta qafqazlı müəllif deyil, uzaq Afrikada yaşayan tuareq millətindən olan bir reportyordur. O gəlib və bu konflikti araşdırır. Ona belə faktlar təqdim edirlər: ermənilər buraya 150-170 il əvvəl köçürülüb, həmişə yerli xalqla dinc, yanaşı yaşayıblar, ancaq sonradan torpaq iddiası iki etnik qrup arasında münaqişə yaradıb, müharibə baş verib, hazırda torpağının 20 faizi işğal olunan, 750 min qaçqın-köçkünü olan, genosidə məruz qalan tərəf Azərbaycandır, ermənilər onların torpağında özlərinə qanunsuz "dövlət" qurublar və s.

Bu və digər, həqiqiliyinin danılması mümkün olmayan yüzlərlə faktı öyrənən və etnik kimlik etibarıyla tuareq olan ədalətli insan nə düşünər, kimə haqq verər? Düzdür, həmin tuareq jurnalist ermənilərlə söhbət edəsə, ona tamam başqa faktlar təqdim edərlər. Amma onlar təhrif və yalan faktlar olacaq. Ortada olan gerçək faktlar bunlardır: işğal, ilhaq, qətliamlar, qaçqınlar, köçkünlər... Bunları kim dana bilər?

Ancaq işə baxın ki, ən azı atası azərbaycanlı olan bir şəxs bütün bu həqiqətlərə göz yumur və haqsızın, zalımın yanında yer alır. Öz dövlətinə, vətəninə xəyanət etməsini kənara qoyaq, adam sadəcə olaraq, haqsız-ədalətsiz biridir.

Ermənilərin arasında da öz dövlətinin siyasəti ilə barışmayan, öz hökumətini tənqid edən, kosmopolit düşüncəli, başəri dəyərlərə önəm verən adamlar var, ancaq onlar heç vaxt öz millətlərinə ikrahla yanaşmırlar, "kaş, bu regionda ermənilər olmazdı" demirlər.

Bizimkilər isə deyirlər. Qınından çıxıb qınını bəyənməmək ənənəsi bizimkilərin arasında daha yayğındır.

**Genetika elmini xəfifə almayaq. Bu cür durumları yalnız o elm izah edə bilər.**

YENİ MÜSAVAT
N 216 (7105) 13 oktyabr 2018

# Amerikalı keşişin azad edilməsi Türkiyə-ABŞ münasibətlərini yumşaldacaq

**Ankara və Vaşinqton amerikalı keşiş Endryu Bransonun azad edilməsi və ABŞ-ın Türkiyəyə qarşı tətbiq etdiyi sanksiyaların ləğv edilməsi barədə razılıq əldə edib.**

## Keşiş Endryu Branson davası başa çatır; politoloq: "Bu razılaşma Türkiyə-ABŞ arasında buzların əriməsinin başlanğıcıdır"

**Bu barədə cümə axşamı "The Washington Post" qəzeti öz elektron versiyasında məlumat dərc edib. Öz növbəsində, nəşrin məlumatına görə, Amerika administrasiyası Branson işi ilə əlaqədar Türkiyəyə qarşı tətbiq edilmiş məhdudlaşdırıcı tədbirləri aradan qaldırmaq və bu cür yeni məhdudiyyətlər tətbiq etməmək barədə üzərinə öhdəlik götürüb.**

Qeyd edək ki, Türkiyə ilə ABŞ-ın onsuz da soyuq olan münasibətlərinin daha da korlanmasına 50 yaşlı amerikalı keşiş Endryu Branson səbəb olmuşdu.

E.Branson Şimali Karolina ştatının Black Mountain adlı kiçik şəhərində dindar ailədə böyüyüb.

Onun 7 qardaşı və bir bacısı var. Onun valideynləri Presbyterian missionerlərdir, vaxtilə Meksika, Pakistan və Rusiyada missionerlik ediblər. Uşaqlıqda Branson xəstəlik keçirib, həmin xəstəlik o dərəcədə ağır keçib ki, hətta anası oğlunun sağalacağına ümidini itirmək həddinə çatıb.

Sonradan Branson keşiş olmaq yolunu seçir və 90-cı illərdə Presbyterian Kilsəsi xətti ilə Türkiyəyə missionerlik etməyə gəlir. O, arvadı Narin və 3 uşağı ilə İzmir şəhərində məskunlaşıb.

Orada Branson evangelist kilsəsinə rəhbərlik edib, həmin kilsədə onlarla ibadətçi olub.

Türkiyə polisi 2016-cı ilin noyabrında A.Bransonu və həyat yoldaşı Narini 2016-cı ilin iyulunda Türkiyədə hərbi çevriliş cəhdinə dəstək verdikləri əsas göstərərək şübhəli qismində həbs etmişdi. Keşişin həyat yoldaşını 13 gündən sonra buraxdılar, özünü isə həbsdə saxladılar. Ona qarşı ittihamlar sübuta yetirlərdisə 35 ilədək azadlıqdan məhrum edilə bilərdi. Türk prokurorları hesab edirdilər ki, ABŞ keşişi terrorçuları dəstəkləyib və missionerlik pərdəsi arxasında casusluq edib.



Türk prokurorluğunun qənaətinə görə, Branson Fətullah Gülən ilə əlaqə saxlayıb və təxribat fəaliyyəti üçün xaricdən pul alıb. İttihamnamədə eləcə də keşişin missionerlik pərdəsi arxasında hərbi casusluq etdiyi də qeyd olunurdu.

Keçən ilin payızında Türkiyə keşişi Bransonu F.Gülənə dəyişməyi təklif edib. Lakin ABŞ Güləni təslim etməkdən imtina edib.

Çoxsaylı xristian təşkilatları Bransonun azadlığa buraxılmasını tələb edirdi. ABŞ-da Qanun və Ədalət Mərkəzi adlanan təşkilat onu siyasi məhbus sayırdı.

Keşiş Bransonun həbs edilməsi ABŞ-Türkiyə münasibətlərinə əlavə gərginlik gətirmişdi. O zamandan indiyə qədər münasibətlər xeyli pisləşib. ABŞ-ın prezidenti D.Tramp da keşişin azad olunması çağırışı etmişdi.

Dövlət katibi Mike Pompeo da xəbərdarlıq etmişdi ki, Türkiyə ABŞ vətəndaşını həbsdə saxlamaqda davam etsə "təsirli sanksiyalarla üzləşəcək". Lakin Türkiyə hökuməti keşişə açılan cinayət işini ləğv etmirdi.

Bu il iyulun axırında İzmir məhkəməsi keşişi ev dustaqlığına buraxdı. Buna baxmayaraq, Vaşinqton münasibətləri gərginləşdirən istiqamətdə addım atdı.

Avqustun 1-də ABŞ Maliyyə Nazirliyi Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu və Ədliyyə naziri Abdulhamit Gülə qarşı sanksiyalar tətbiq edib və onların aktivlərini dondurub.

Türkiyəyə qarşı ABŞ-ın qəbul etdiyi bir sıra sanksiyaların türk lirəsinin rekord dərəcədə ucuzlaşmasına səbəb olduğu deyilirdi. Lakin ABŞ rəsmiləri bununla kifayətlənmədilər, Tramp elan etdi ki, türk poladı və alüminiumuna da gömrük rüsumunu ikiqat qaldırılır.

Bu addım Türkiyədə lirənin və fond bazarının vəziyyətini, inflyasiya proqnozlarını daha da pisləşdirdi.

Ərdoğan buna cavab olaraq xəbərdarlıq etdi ki, ABŞ-ın birtərəfli addımları Türkiyəni yeni dostlar axtarmağa məcbur edə bilər. Türkiyə prezidenti eləcə də ABŞ elektronik məhsullarını da boykot ediləcəyi xəbərdarlığını etdi. Beləliklə, Vaşinqtonda əminlik yarandı ki, Ankarayla təzyiq yolu ilə danışmağın müsbət nəticəsi olmayacaq. Ona görə də nəhayət sanksiyaların aradan qaldırılacağı barədə razılıq verməklə keşiş Bransonun azadlığına, ölkədən xaricə buraxılmasına Ankaranı razı salmalı oldu.

Bəs keşiş Endryu Bransonun buraxılması uzun müddətdir gərgin olan ABŞ-Türkiyə münsibətlərində yumşalma əmələ gətirəcəkmi?

**Politoloq Əhəd Məmmədli** bildirdi ki, şübhəsiz keşişin azad edilməsi Türkiyə-ABŞ münasibətlərində yumşalma əmələ gətirəcək: "Türkiyənin ABŞ-ın heç bir ultimatumunu yerinə yetirməyəcəyini anlayan Ağ Ev geri çəkilib Ankara ilə razılığa gəlməyi məcbur oldu. Amerika sanksiyalardan imtina etmək bahasına Türkiyədən keşişin buraxılmasına nail oldu. Bundan sonra da Türkiyə-ABŞ münasibətlərində yumşalma gözləmək olar".

**Bununla belə, politoloq vurğuladı ki, Türkiyə-ABŞ münasibətlərində əsas problem heç də keşiş Endryu Branson məsələsi deyil.** "Əsas problem PKK və FETÖ-dür. Suriyada PKK-nın silahlanması davam etdikcə Türkiyə-ABŞ münasibətlərində gərginlik davam edəcək. Üstəlik Fətullah Gülənin ekstradisiyası həll edilməyənə qədər bu iki dərjava arasında problemlər davam edəcək. Amma düşünürəm ki, keşiş məsələsində bu razılaşma Türkiyə-ABŞ arasında buzların əriməsinin başlanğıcıdır. Bu yaxınlarda Türkiyənin Menbic də antiterror əməliyyatı gözlənilir. Bu baş versə və Suriya ateist-marksist terrorçularından tamamilə təmizlənsə, Amerika, güclü Türkiyə faktorunu qəbul edəcək. Neçə ki, İdlib məsələsində Putin Rusiyası, güclü Türkiyə faktorunu qəbul etməyə məcbur oldu".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Qapalı rejimlərin qisas mexanizmi - qəddar cəzalar

## Camal Qaşıqçının başına gətirilənlər göstərir ki, diktatura rejimləri tənqidçiləri dünyanın hansı yerində olsa da, tapıb cəzalandıra bilirlər

**Dünyanın əsas gündəmi Səudiyyə Ərəbistanından olan jurnalist Camal Qaşıqçının taleyidir. Artıq ABŞ, Türkiyə dövlət başçıları bu hadisəyə münasibət bildirib. Türkiyədə yerli xəfiyyələr, o cümlədən ABŞ-dan gələn müfəttişlər Qaşıqçının istintaqında iştirak edir. Ötən gün isə Səudiyyə Ərəbistanından xüsusi heyət Qaşıqçı işini araşdırmaq üçün Türkiyəyə gəlib.**

Xatırladaq ki, son bir ildə "Vaşinqton Post" qəzetində yazılar yazan tanınmış səudiyyəli jurnalist oktyabrın 2-də İstanbuldakı Ərəbistan konsulluğuna daxil olub və bundan sonra ondan xəbər almaq mümkün olmayıb.

Amerika və Türkiyə mediası isə müxtəlif mənbələrə istinadən Qaşıqçının İstanbul konsulluğunda Ərəbistandan gələn 15 nəfərlik heyət tərəfindən qətlə yetirildiyi barədə yazıb. O da bildirilir ki, ələ keçən kadrlarda Səudiyyə Ərəbistanı təhlükəsizlik qüvvələrinin bir qrupunun konsulluğa rəsmi sənəd almaq üçün gələn Qaşıqçını saxladığı, daha sonra öldürərək vücudunu parçalara ayırdığı görünür. O da iddia olunur ki, Türkiyə xüsusi xidmət orqanlarının əlinə keçən səs yazısında Qaşıqçının dindirildiyi, bu zaman işgəncəyə məruz qaldığı və nəhayət öldürülməsi eşidilir.



Qeyd edək ki, uzun illər Ərəbistanda nüfuzlu media orqanlarında çalışan, bəzilərinə rəhbərlik edən Qaşıqçı son illərdə hakimiyyətə müxalif olub. Xüsusən də hazırkı iqtidar sahibi olan vəliəhd-şahzadə Məhəmməd bin Salmana qarşı cəbhədə yer aldığı bilinir. Camal Qaşıqçının itməzdən 3 gün əvvəl BBC-yə verdiyi və itkin düşdükdən sonra yayılan müsahibədə deyir ki, Səudiyyə Ərəbistanında hakimiyyəti tənqid edən jurnalistlər həbs olunur. Həbs olunanlar müxalif belə deyil. Bu, insanları qorxudur. Eyni zamanda o, ölkəsinə geri dönə bilməyəcəyini deyib.

Hələlik taleyi dəqiq bəlli olmasa da, Qaşıqçı işi bir daha diktatura rejimlərində jurnalistlərin həyatının necə təhlükəli olduğunu göz önünə gətirir. Özü də təkcə Yaxın Şərqdə deyil, həm də Avropada.

Ötən həftə şənbə günü Bolqarıstanda araşdırmaçı jurnalist Viktoriya Marinova qətlə yetirilib. Jurnalistin işgəncəyə məruz qaldığı və daha sonra öldürüldüyü Dunay çayı yaxınlığında Ruse şəhərindəki bir parka atılıb. Viktoriya Marinova 2017-ci ilin əvvəlindən bəri Avropa İttifaqında öldürülən dördüncü jurnalistidir.

2017-ci ilin avqustunda Kopenhagendə İsveç müxbir Kim Wall müsahibə almaq üçün görüşdüyü danimarkalı ixtiraçı Peter Madsen tərəfindən öldürülüb. 2017-ci ilin oktyabrında maltalı jurnalist Daphne Caruana Galizianın avtomobili evinin yaxınlığında partladılıb. Bu ilin fevralında isə slovakiyalı jurnalist Jan Kuciak və nişanlısı Martina Kusnirova öldürülüb.

Bu hadisələr qələm adamlarının dünyanın hər yerində təhlükədə olduğunu isbatlayır. Camal Qaşıqçı hadisəsi isə siyasi proseslərə qarışan jurnalistlərin həm də klanlar arası mübarizənin qurbanı olması riskini göstərir. Məsələ ondadır ki, uzun illər Səudiyyə Ərəbistanında nüfuzlu media orqanlarına rəhbərlik edən, parlaq layihələrə imza atan Qaşıqçı sonradan, daha dəqiqi "ərəb baharı" prosesində mərkəzi hökumətlə fikir ayrılığına düşüb. Onun yaxın olduğu qrup daha sonra gözdən düşüb. Bir müddət müşaviri olduğu keçmiş kəşfiyyat naziri və ABŞ-da səfir işləmiş Türki bin Faysal vəzifədən uzaqlaşdırılıb. Bundan başqa Qaşıqçını dəstəkləyən, 2015-ci ildə "Al-Arab" kanalını yaradan (kanal yaradılıqdan az sonra bağlanıb - K.R.) şahzadə Vəlid bin Talal 2017-ci ildə həbs olunub. Ötən il isə Qaşıqçının kral sarayındakı adamı, daxili işlər naziri və vəliəhd-şahzadə Məhəmməd bin Naif vəliəhd vəliəhd-şahzadə vəzifəsindən geri çəkilib, bu vəzifəyə Məhəmməd bin Salman gətirilib. Jurnalist Qaşıqçı isə saraydakı bütün dayaqlarını itirib və az sonra ölkəni tərk edərək ABŞ-a sığınıb. Ancaq eyni zamanda uzun müddət Türkiyədə yaşayıb və "Vaşinqton Post" qəzetində yazılar yazıb.

Bəzi müşahidəçilərə görə, Qaşıqçının qəzəbə gəlməsinin əsas səbəbi məhz saraydakı münaqişədir. Səudiyyə Ərəbistanı Qərb blokunun Yaxın Şərqdə ən yaxın müttəfiqi, Türkiyə ilə isti münasibətləri olan ölkədir. Ancaq bu yaxınlığın səbəbi Ərəbistandakı demokratiya deyil, daha çox böyük enerji ehtiyatları və hüdudsuz sərvətdir. Bir də təbii ki, strateji seçim. Səudiyyə Ərəbistanı regionun güclü ölkəsi, həmçinin yerləşdiyi coğrafiya, İslam dininin meydana çıxdığı ölkə olması səbəbindən müsəlman aləmində böyük nüfuza malikdir. Bu səbəbdən də Səudiyyə Ərəbistanı hələ də daxili siyasi vəziyyət, antidemokratik qərarlarına rəğmən Qərbin əsas müttəfiqi, eləcə də müsəlman aləminin lider ölkələrindən biridir. Lakin son hadisələr, xüsusən də əgər Qaşıqçının ölümü təsdiqlənsə, bu təkcə Səudiyyə Ərəbistanının indiki hakimiyyəti üçün deyil, həm də Qərb, o cümlədən ABŞ, eləcə də Türkiyə üçün ciddi problem olacaq.

**Qaşıqçı hadisəsi göstərir ki, müasir dünyada qəddar rejimlər üçün artıq dünyanın hər hansı nöqtəsi əlçatmaz deyil. Onlar öz tənqidçilərini istənilən ölkədə yaxalayıb cəzalandıra bilirlər. Bu isə ümumilikdə təkcə media deyil, siyasi fəallar, müxalif fikirli insanlar üçün ciddi təhlükə deməkdir. Bəzilərinə görə Qaşıqçı hadisəsi həm də krallığın düşmənlərinə bu qorxunu aşılamaq məqsədi güdür. Bu isə dünya demokratiyası, tənqidi fikir üçün ciddi təhdiddir.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Bir neçə gün öncə ABŞ Dövlət Departamentinin rəsmisi, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent Bakıda oldu. Qarabağla bağlı ölkəsinin mövqeyini ifadə elədi. Bildirdi ki, Birləşmiş Ştatlar Ermənistanın aqressiv işğalçı siyasətini və Azərbaycanın ərazi bütövlüyünün bərpasına qarşı təbliğati addımlarını qəbul eləmir.**




Departament yetkinlisinin sözlərinə görə, “ABŞ Dağlıq Qarabağın müstəqilliyini tanımır və Azərbaycanın bu regionunu heç vaxt başqa adla adlandırmayacaq”. Dövlət katibinin müavininin köməkçisi həmçinin Vaşinqtonun ATƏT-in Minsk Qrupunu formatına və bu format çərçivəsində hazırlanmış nizamlama formullarına sadiq olduğunu bəyan elədi. “Dağlıq Qarabağ konflikti BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və "Madrid prinsipləri" əsasında həll olunmalıdır" dedi.



# Qərb Qarabağ nizamlanmasında fəallaşır - maraqlı gəlişmə

## Konfliktin həllində Rusiya-ABŞ anlaşması mümkünmü? **Rusiyalı tanınmış politoloq:** “Moskva da konfliktin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir...”

Dünyanın aparıcı və vasitəçi dövlətinin belə mövqe sərgiləməsi, sözsüz ki, Azərbaycan üçün mühüm və prinsipial əhəmiyyət daşıyır. “Azərbaycanda hamı münaqişənin həllini istəyir. ABŞ Minsk Qrupunun həmsədri olaraq bu məsələdə öz məsuliyyətini bütün ciddiliyi ilə anlayır”. Bunu da amerikalı diplomat Bakıda söyləmişdi.

*****

Yuxarıdakı açıqlamalardan gələnən qənaət həm də bundan ibarətdir ki, ABŞ Minsk Qrupundakı passiv mövqeyindən aktiv vasitəçiliyə keçmək niyyətindədir. “Yeni Müsavat” xatırladır ki, təxminən eyni gündə Almaniya hökuməti Dağlıq Qarabağla bağlı analoji mövqe sərgiləyərək ixtilafın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxmışdı. “Ermənistan silahlı qüvvələrinin nəzarətində olan Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu Azərbaycanın tərkib hissəsi hesab edirik və "DQR" adlandırılan separatçı qurumu tanımırıq", - deyə rəsmi Berlinin bəyanatında deyilirdi.

Bəs Qərbin bu iki mühüm dövlətinin və Minsk Qrupu üzvlərinin belə mövqeyi sülh prosesinə nə vəd edir, danışıqlarda canlanma və ya diplomatik həmlə mümkündürmü?

“Qərb hələ ki ayrı-ayrı bəyanatlarla kifayətlənir və Dağlıq Qarabağ probleminin dinc yolla həlli üçün praktik addımlar atmır”. “Yeni Müsavat”ın məlumatına görə, bu sözləri “Vestnik Kavkaza” portalına rusiyalı tanınmış politoloq, Moskvadakı Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov bildirib.

“Hələlik ABŞ-ın Qarabağ nizamlanmasına münasibətdə öz siyasətini necə dəyişmək istədiyi barədə heç nə məlum deyil. Qeyd eləməyə dəyər ki, Rusiya, ABŞ və Fransanın həmsədr olduğu Minsk Qrupunda Moskva ilə Vaşinqton arasında heç bir ciddi qarşıdurma yoxdur. Bu da Bakı üçün yaxşıdır. Nədən ki, Rusiya da münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir”, - deyə politoloq qeyd edib.

Onun sözlərinə görə, ABŞ və Rusiyanın mövqelərindəki fərq yalnız ondadır ki, Moskva bu məsələdə az-çox fəaldır və Azərbaycanla Ermənistanın hansısa anlaşma əldə etməsinə kömək edir: “O cümlədən söhbət Dmitri Medvedyevin prezidentliyi dönəmində hazırlanmış "Kazan formulu"ndan gedir - hansını ki, iki il öncə, aprel döyüşlərindən sonra biz irəli aparırdıq. ABŞ isə passiv mövqe tutur. Necə deyərlər, sağ olsunlar ki, heç olmasa, mane olmurlar".

Rusiyalı ekspert ABŞ-la Rusiya arşında Qarabağla bağlı fikir ayrılığının olmamasını mühüm hesab edir: “Ona görə ki, başqa istiqamətlərdə - Suriyada, Ukraynada Vaşinqton fəal şəkildə bizə qarşı çıxış edir, konfliktlərin həllini əngəl yaradır. Fikrimcə, idealda ABŞ Dağlıq Qarabağla bağlı öz sözünü tutacaq. Hərçənd sözdə nizamlamanı dəstəkləsə də, bundan o yana getmir və Rusiyanın səylərinə də mane olmur”.

“Onu da unutmaq olmaz ki, həmsədr ölkələr kimi həm ABŞ-da, həm də Fransada böyük erməni diasporu mövcuddur. Bu diaspora hımin iki ölkənin daxili işlərində çox nüfuzludur. O üzdən bu ölkələrdə müəyyən mənada erməniyönlü mövqe özünü büruzə verir. Odur ki, Kentin bəyanatına mən bu məsələdə püxtələşmiş məmurun regiona müntəzəm baş çəkməsinin tərkib hissəsi kimi baxardım”, - deyə Markov bildirib və sonda əlavə edib ki, əgər Vaşinqton nizamlamaya praktik töhfə istəsəydi, o zaman o, Ermənistana iqtisadi yardımı azaldar və öz məmurlarına Qarabağa qanunsuz səfərləri qadağan edərdi.

*****

Sonuncu qənaətlə razılaşmamaq mümkünsüzdür. Ancaq bu da var ki, Markovun təmsil elədiyi ölkə - Rusiya işğalçı ölkəyə ABŞ-dan qat-qat çox kömək edir. Özü də hərtərəfli şəkildə və İrəvana su qiymətinə verdiyi silah-sursatla. Nəticədə Azərbaycan ərazilərinin işğalı uzanır. Çünki böyük dövlətlərin passivliyinə və cəzasızlığa arxayın olan İrəvan Dağlıq Qarabağla bağlı konstruktiv mövqedən qaçır.

Ən absurdu odur ki, sülh prosesinin uzanmasından işğalçı tərəf də gileylənir. “ATƏT-in Minsk Qrupunun həmsədrləri 20 ildən çoxdur Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğuldur. Lakin həll prosesində hansısa irəliləyiş yoxdur”. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan Frankofonuya tədbirində deyib.

Baş nazir bu illər ərzində münaqişə tərəflərinin çoxlu sayda itkilər verdiyini qeyd edərək deyib: “Qarşıdurma minlərlə insanın həyatına son qoydu. Hələlik səylər nəticə vermir”. Nikol Paşinyan Azərbaycanın Dağlıq Qarabağdakı rejimin prosesə dialoq cəlb edilməsinə razı olmadığını da diqqətə çatdırıb: “Lakin biz hesab edirik ki, Dağlıq Qarabağın statusunu bu bölgədə yaşayan insanlar müəyyən edə bilərlər”. O, münaqişənin hərbi yolla həll variantının təhlükəli olduğunu vurğulayıb: “Sülhə nail olmaq üçün səyləri artırmaq lazımdır”.

*****

**Ancaq işğalçı Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımayınca, sülh səyləri heç vaxt nəticə verməyəcək. Necə ki, illərdir vermir. Öz ərazisində ikinci saxta erməni dövlətinin yaranmasına isə Azərbaycan heç vaxt razı olmayacaq. Heç şübhəsiz, bu günlərdə Bakıda səfərdə olan ABŞ diplomatlarının yuxarıdakı açıqlamaları da ən əvvəl bu reallığın dərkindən qaynaqlanır...**




# Azərbaycan XİN Paşinyanın yalanını çıxardı

**“Ermənistan baş naziri bir müddət öncə BMT Baş Assambleyasının 73-cü sessiyasındakı bəyanatında olduğu kimi, Frankofoniya təşkilatının açılışındakı çıxışında da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair yalan və həqiqətdən uzaq fikirlər səsləndirdi. Bu cür ritorika Düşənbədə baş tutmuş söhbətin ruhuna tamamilə uyğun gəlmir”.**

Musavat.com xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin Ermənistan baş nazirinin Frankofoniya təşkilatının açılışındakı çıxışına dair şərhində belə deyilir. Şərhdə sonra bildirilir: “Əgər Ermənistan baş naziri dürüst olmaq istəyirsə, o zaman onu tam ədalətli olmağa və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlarından zor gücünə öz evlərindən qovulmuş yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının pozulduğunu etiraf etməyə çağırırıq. Məqsədyönlü şəkildə erməni icmasını "Dağlıq Qarabağ xalqı" adlandıran Ermənistan baş naziri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasına qarşı etnik təmizləmənin həyata keçirildiyinə göz yumur.

Əgər Ermənistan rəhbərliyi özünü demokratik adlandırırsa və sülh şəraitinin yaradılmasından danışırsa, o zaman onlar qanunun aliliyi və demokratik dəyərlərə uyğun davranmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrində və digər beynəlxalq təşkilatların qərarlarında tələb olunduğu kimi didərgin düşmüş insanların öz evlərinə geri dönməsinə imkan yaratmalı və öz silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən geri çəkməlidir".

**Şərhdə həmçinin qeyd olunub ki, Azərbaycan ərazilərinin işğalına son qoyacaq və zor gücü ilə öz evlərindən qovulmuş azərbaycanlıların işğal edilmiş Dağlıq Qarabağ və ətraf bölgələrdəki evlərinə və mülklərinə təhlükəsiz və ləyaqətlə geri dönməsini təmin edəcək real addımlar atılmayanadək Ermənistan rəhbərliyinin sülh danışıqları prosesinin irəli aparılmasına dair bütün bəyanatları yalnız söz olaraq qalacaq.**

YENİ MÜSAVAT
N 216 (7105) 13 oktyabr 2018

**Oktyabrın 12-də Milli Məclisin növbəti plenar iclası birinci vitse-spiker Ziyafət Əsgərovun sədrliyi ilə keçirildi. 98 deputatın iştirakı ilə keçirilən iclasın gündəliyinə 54 məsələ daxil edilmişdi.**

**Deputat Sevinc Hüseynova** 7 oktyabrda bir qrup Rusiya vətəndaşının qanunsuz olaraq Qarabağa gəlməsinə diqqət çəkdi.

**Deputat Tahir Kərimli** komitə sədri **Əli Hüseynli**ni 50 illik yubileyi münasibətilə təbrik etdi. Dedi ki, komitə sədrini hələ 90-cı illərin əvvəllərindən tanıyır və onun haqqında yüksək fikirdədir.

İclasa sədrlik edən birinci vitse-spiker **Ziyafət Əsgərov**, YAP icra katibinin müavini, komitə sədri **Siyavuş Novruzov** da YAP üzvü olan Ə.Hüseynlini təbrik etdilər.

**Deputat Fərəc Quliyev** da Rusiya vətəndaşlarının Qarabağa qanunsuz səfərinə etiraz etdi. Deputat Gürcüstanda yaşayan soydaşlarımızın təhsil problemlərindən danışdı: "Bəlkə Gürcüstanda yaşayan soydaşlarımıza 100-200 nəfərlik kvota ayıraq, onlar burada ali təhsil alıb geri qayıtsınlar. Əks təqdirdə onları da Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın taleyi gözləyə bilər".



# Parlamentdə rus dili və Rusiya universitetləri müzakirəsi

## Gövhər Baxşəliyeva: "İstənilən azərbaycanlının ilkin təhsili ana dilində olmalıdır; sadiq Azərbaycan vətəndaşı olmaq üçün bu, çox vacibdir"

## Əli Hüseynli: "Əgər vətəndaşlarımız öz övladlarını rus bölməsinə qoyurlarsa, onların seçiminə hörmətlə yanaşmalıyıq"

**Deputat Elman Məmmədov** da Paşinyanın arvadının "sülh heyəti"nə etiraz etdi: "Paşunyanın arvadına qoşulub Qarabağa gələn adamlar gəldikləri yeri bilməliydilər. Bilməliydilər ki, hardadırlar. Təbii ki, bilərəkdən gəliblər. Biz dövlətlərarası münasibətlərə həmin adamların səviyyəsindən baxmamalıyıq. Amma biz həmişə gözləyirik ki, düşmən tərəf nə isə etsin, biz də ona qarşı kampaniya aparaq. Biz də səviyyəli qadınları dəvət edib, onları təmas xəttinə apara bilərik".

Deputat ardınca dedi ki, 12 oktyabr Azərbaycan tarixinin qara səhifələrindən biridir: "Bu gün "Gülüstan" müqaviləsinin imzalandığı, Azərbaycanın parçalandığı gündür. Çox təəssüf ki, 200 ildən artıq müddət keçməsinə baxmayaraq, 1813-cü ilin bu günündə imzalanmış "Gülüstan" müqaviləsinə görə Ermənistan adlı dövlət mövcuddur".

**Deputat Elman Nəsirov** İrəvanda keçirilən sammitdə Dağlıq Qarabağ üçün yer ayrılmasına etirazını bildirdi, bunun sülh prosesinə qarşı təxribat olduğunu qeyd etdi. Deputat Ermənistan rəhbərliyinin son açıqlamalarına da qarşı çıxdı: "Ermənistanın baş naziri yenə də öz ampluasındadır. Sanki Düşənbədə heç bir razılaşma əldə olunmayıb. Deyir ki, "Qarabağ xalqı"nın mövqeyi nəzərə alınmalıdır. Belə yanaşmalar sülh danışıqlarının pozulmasına xidmət edir və qəbuledilməzdir".

**Deputat Zahid Oruc** da Qarabağa qanunsuz səfər edən qadınlardan danışdı. Dedi ki, vaxtilə Azərbaycan qadınları baş örpəyi ilə bu qan-qadanı dayandırmağa çalışmışdı. Lakin biz indiyədək erməni qadınlarının sülhə töhfə verdiyini görməmişik. Əksinə, onlar öz balalarını azərbaycanlıları öldürməyə təşviq ediblər. Öz övladları öləndə də onların qəbri üstündə qəhrəman kimi ağlayıblar. Ermənistan Prezident Aparatındakı aksiyalarda öz balalarına bir ovuc erməni ağlayır. Bu, erməni xalqının mövqeyi deyil". Z.Oruc dedi ki, Azərbaycan qadınları ermənilərin bu saxta çağırışına münasibəti bəllidir: "Erməni qadını sülh istəmir. Əgər sülh istəsə, hakimiyyətdən bu işğala son qoymağı tələb edərdi".

Z.Oruc Almaniya Bundestaqının Qarabağla bağlı mövqeyini təqdir etdi və digər ölkələrə nümunə saydı.

**Komitə sədri Siyavuş Novruzov** isə dedi ki, xarici siyasətlə bağlı həssas yanaşma lazımdır: "Çalışmalıyıq ki, ərazilərimizin işğal olunması, böyük dövlətlərin maraqlarının olması şəraitində ehtiyatlı olaq. Bəzi qüvvələr bulanıq suda balıq tutmaq istəyirlər. Bu il Azərbaycanla Rusiya, Türkiyə, Almaniya və digər ölkələr arasında yaxınlaşma olub. Bu yaxınlarda Fransa prezidentinin də səfəri gözlənilir. Biz hər bir addımımızla çalışmalıyıq ki, maraqlarımıza xələl gəlsin, hansısa jurnalist, yaxud siyasətçi bundan istifadə etsin və maraqlarımıza zərbə vursun. Ümummilli lider hakimiyyətə gəldikdən sonra bütün qonşularla dağılan münasibətlər yenidən quruldu və bu gün də bu siyasət uğurla, balanlaşdırılmış şəkildə davam etdirilir. Azərbaycanı istəməyən qüvvələrin aranı qatmaq istədiyini deyən deputata bildirib ki, bu gün ermənilərin əli ilə ölkəmizə qarşı müxtəlif addımlar atılır. Hesab edirəm ki, burada oturan hər bir şəxs öz dövlətini sevən biridir. Biz öz əməli fəaliyyətimizlə prezidentin apardığı xarici siyasətə xələl gətirməməliyik".

**Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əli Hüseynli** rusiyalı qadınların Qarabağa qanunsuz səfərinə münasibət bildirdi. Dedi ki, artıq Rusiya Dövlət Dumasının təmsilçisi, komitə sədrinin müavini və hakim partiyanın üzvü olan xanımın Qarabağa qanunsuz səfəri ilə bağlı artıq müraciətlər hazırlanıb: "Milli Məclisin deputatlarının oktyabrın 7-də bir qrup rusiyalı qadının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisinə səfəri ilə bağlı mövqelərini bölüşürəm. Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu həm Rusiya parlamentinin sədri Volodinə, eyni zamanda digər komitələrə səsləndirilən kəskin arqumentlərlə birlikdə müraciət hazırlayıb. Bu müraciəti həm mən, həm də Azərbaycan-Rus icmasının sədri Mixayıl Zabelin imzalayacaq. Biz buna münasibət bildirmək istəməzdik, amma Rusiya Dövlət Dumasının xarici əlaqələr komitəsi sədrinin birinci müavininin səfəri bizi buna vadar etdi".

**Deputat Gövhər Baxşəliyeva** rus bölməsinə daxil olan uşaqların sayının artmasından narahat olduğunu söylədi. "Bu, kökündən səhv bir meyldir, biz vaxtında bunun qarşısını almalıyıq. Bu, mənim rus dilinə qarşı çıxmağım kimi anlaşılmamalıdır. Rusiya bizim strateji portnyorumuzdur, dost dövlətdir. Amma rus dili ingilis kimi tədris olunmalıdır"-deyə, o bildirdi. G.Baxşəliyeva dedi ki, bütövlükdə azərbaycanlı uşaqların 1-ci sinifdən rus bölməsinə verilməsi kökündən yanlışdır: "Necə olur ki, Azərin o tayında 35 milyonluq xalq ana dilində təhsil uğrunda mücadilə verirlər, təzyiqlərə məruz qalırlar, amma biz burada ana dilində təhsil vermirik? İstənilən azərbaycanlının ilkin təhsili ana dilində olmalıdır. Sadiq Azərbaycan vətəndaşı olmaq üçün bu, çox vacibdir". Sovet dövrünə istinad edənlərə də cavab verdi: "Bəli, o vaxt karyera qurmaq üçün rus dili lazım idi. Amma bu gün biz müstəqillik və karyera üçün ana dili vacibdir".

**Əli Hüseynli** rus dili ilə bağlı G.Baxşəliyevanın dedikləri ilə razılaşmadı: "Əgər vətəndaşlarımız öz övladlarını rus bölməsinə qoyurlarsa, onların seçiminə hörmətlə yanaşmalıyıq. Biz çalışmalıyıq ki, gənclərimiz bir neçə dil bilsin".

Plenar iclasda aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllərə görə cəzaları müəyyən edən layihə müzakirəyə çıxarıldı və qəbul edildi.

Cəzaların İcrası Məsələsinə dəyişikliklər məsələsi də müzakirə olundu. **Deputat Elman Məmmədov** söz alaraq bildirdi ki, cəzaların humansitləşdirilməsi istiqamətində bütün addımları alqışlayır: "Amma bir problem var ki, həbsdən azadlığa çıxan insanlar iş tapa bilmirlər. Qanunda göstərilib ki, onlara bu istiqamətdə köməkliklər göstərilməlidir. Məmurlar niyə buna əməl etmirlər? O adamlar necə işsiz qala bilər? Həbsdən çıxandan sonra o insanlar necə dolansınlar? Bəzən olur ki, iş tapa bilməyən adam yenidən cinayət törədib həbsxanaya qayıdır". Deputat vaxtilə bununla bağlı yaxşı bir ənənənin olduğunu da xatırlatdı: "Bəyənmədiyimiz Sovet dövlətində belə bir qayda var idi ki, həbsdən azadlığa çıxan insan yaşadığı yer üzrə nəzarətə götürülürdü və işlə təmin olunurdu. Bu insanların bir daha həbsə qayıtmaması üçün bu addımı atmalıyıq".

**Komitə sədri Siyavuş Novruzov** mənzil fırıldaqçıları ilə bağlı danışdı. O bildirdi ki, bununla bağlı deputatlara çoxsaylı müraciətlər edilir: "Bir qrup insan bir mənzili bir neçə nəfərə satır, burada vətəndaşların vəsaitləri mənimsənilir. Onlara hüquqi əsası olmayan müqavilə verilir. İnsanlar belə hallarla bağlı hüquq-mühafizə orqanlarına müraciət edirlər, onlar məsuliyyətə cəlb edilirlər. Bəzi hallarda məlum olur ki, həmin şirkətlər məsuliyyətə cəlb edilənin adına deyil. Soruşanda da məlum olur ki, bunun heç prosesdən xəbəri yoxdur. İnsanları aldadanlar məcburi köçkünlərin adından da sui-istifadə edirlər ki, güzəştlər əldə etsinlər. İnsanları aldadan, vəsaitini mənimsəyən bir kənarda qalır, günahsız bir adamı həbsə salırlar".

Milli Məclisin bu gün keçirilən iclasında "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Dövlət Neft Şirkəti ilə "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsi təsdiq olundu. Layihə barədə vitse-spiker, **Milli Məclisin komitə sədri Valeh Ələsgərov** geniş məlumat verdi.

**Deputat Vahid Əhmədov** isə iradını bildirdi: "Parlamentin 100 illiyi ilə bağlı gətirib bizə xatirə medalı veriblər. Ancaq o daşına bilən bir şey deyil. Milli Məclisin 100 illik yubileyi ilə bağlı medal təsis olunmalıdır. Niyə bu medal təsis olunmur? Nəyə görə bu insanlar, müstəqillik dövründə qanunları qəbul edən deputatlar bu medallarla təltif edilmirlər? Bu məsələyə aydınlıq gətirilməlidir. Bəlkə doğrudan da medala layiq olan deputatlar bu Milli Məclisdə yoxdur. Kənar orqanlarda işləyənlərə medal verən Milli Məclisin özünün medalı yoxdur. Bu məsələyə aydınlıq gətirilməlidir. Çünki çox ciddi məsələdir".

V.Əhmədov əlavə etdi ki, onsuz da Milli Məclisin səlahiyyətləri əlindən alınıb: "Milli Məclisin 100 illik yubileyi ilə bağlı medal təsis olunması çox vacibdir. Medalın təsis olunmaması Milli Məclisin üzvlərinə yüksəklik gətirmir. Biz özümüzə qiymət verməliyik. Belə olmaz axı".

V.Əhmədovun çıxışına reaksiyasında Z.Əsgərov bildirdi ki, parlamentin 100 illiyi ilə bağlı xatirə medalı bütün deputatlara verilib: "Mən sizinlə razı deyiləm ki, Milli Məclisin səlahiyyətləri əlindən alınıb. Milli Məclis kifayət qədər səlahiyyəti var və ondan da istifadə edir. Parlamentin 100 illiyi ilə bağlı medalın təsis edilməsi məsələsini isə müzakirə etmək olar. Lazım bilinsə yəqin ki, təkliflər olacaq".

**Deputat Siyavuş Novruzov** Milli Məclisin medalının təsis edilməsi ilə bağlı təklif irəli sürdü: "Hər bir təşkilatın medalını təsdiq edirik, lakin özümüzünkünü təsis etmirik. Belə medal təsis edilsə, onu gələn qonaqlara da təqdim etmək olar".

**Deputat Qüdrət Həsənquliyev** növbəti dəfə ölkədəki rusdilli məktəblərlə bağlı mövzuya toxundu. Dedi ki, ölkəmizdə yeni rusdilli məktəblərin açılması barədə qərarı təqdir edir: "Amma bununla yanaşı, ölkəmizdə inglis dilinin öyrənilməsinə də ehtiyac var və bu dilin öyrənilməsi ilə bağlı dövlət proqramı qəbul edilməlidir. Bir məsələni də qeyd edim ki, Azərbaycanda ingilisdilli məktəblər var, lakin onlar çox bahalıdırlar. İngilisdilli pulsuz məktəblərin olmasına ehtiyac var".

Q.Həsənquliyev Rusiyanın Azərbaycanda daha 3 universitetinin filialını açmaq niyyətində olduğunu söylədi. Qeyd etdi ki, dünyanın ilk 200-lüyünə daxil olan ali məktəblərin ölkəmizdə filialının açılması istiqamətində işlər görülməlidir.

Deputat xaricdə təhsil alan tələbələrin Azərbaycanda işlə təmin olunması məsələsinə də toxundu: "Çox təəssüf ki, xaricdə təhsil alan tələbələr ölkəmizə qayıtdıqdan sonra burada əmək haqqının azlığına görə çalışmaq istəmir, yenidən geri qayıdırlar. Həmin uşaqlar üçün fərqli maaş təklif etmək imkanı olmalıdır. Biz dövlət orqanları, idarə təşkilatları üçün belə bir imkan yaratmalıyıq ki, fərqli əmək haqqı imkanları yarada bilsinlər. Xaricdə təhsil alan tələbələr kadr ehtiyatı kimi geri çağırılmalıdır".

**Ziyafət Əsgərov** isə Rusiya universitetlərinin filiallarının artmasını təqdir etdi: "Azərbaycanda Rusiya ali məktəblərinin iki filialı burda fəaliyyət göstərir, qoy üçü də gəlsin. Yaxud Fransa məktəbi var, bunun nəyi pisdir? Bundan çəkinmək lazım deyil. Xaricdə təhsil alan tələbələri burda təhsil alanlardan yuxarı qoymaq düzgün deyil. Götürün BDU-da, ADA-da oxuyanları, onlar xaricdə oxuyanlardan əskikdir? Mənim tələbələrimin 22-si Almaniyada, Türkiyədə, digər ölkələrdə oxuyub. Mən onların 18-nə şəxsən zəmanət vermişəm. Onların 12-si qırmızı diplomla bitiriblər. Deməli, burada bakalavr mərhələsini yüksək səviyyədə bitiriblər. Oturmuşuq sovet təfəkküründə ki, bizdə təhsil yoxdur. Necə yəni yoxdur? Bizdə çox gözəl biliklər verilir. Azərbaycan təhsilini aşağılamaq heç də yaxşı hal deyil. Bizim nümunəvi universitetlərimiz, nümunəvi tələbələrimiz, müəllimlərimiz var. Mən istənilən deputatları BDU-ya dəvət edirəm. Azərbaycan təhsili haqqında bu qədər neqativ fikirdə olmayın".

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

**Azərbaycanda qadınların vəzifələrdə, siyasətdə biznes və digər sahələrdə təmsilçiliyinin az olması hər zaman müzakirə mövzusudur. Bu yöndə səslənən fikirlər müxtəliflik təşkil edir. Daha çox bu hal mentalitetlə əlaqələndirilir.**

# Azərbaycanda qadınların vəzifə və biznesdə təmsilçiliyi niyə azdır-onlar danışır...









**Tamilla Qulami:** “Bunu təkcə kişilərin üstünə atmaq lazım deyil”
**Rəsmiyyə Allahverdiyeva:** “Xanımlarımızda risk yoxdur”
**Fərqanə Mehmanqızı:** “Beşiyi yırğalayan əl dünyanı idarə edər”
**Səbinə Abdullayeva:** “Qadınlarımız yetərincə aktiv şəkildə ön sıralarda təmsil olunurlar”

**Ümid Partiyasının sədri Tamilla Qulami** bildirdi ki, uzun illərin mental dəyərləri, Şərq təfəkkürü, Şərq yanaşması Azərbaycan qadınının siyasətdə, ictimai həyatda, biznesdə yer tutmasına o qədər də ciddi şərait yaratmayıb: “Baxmayaraq ki, sovet hakimiyyətinin ilk illərindən başlayaraq, bir qadın hərəkatı yaradıldı, qadın hərəkatı formalaşdırıldı, amma təəssüf ki, bu da nə biznes vərdişlərinə, nə də ictimai-siyasi vərdişlərə çevrilmədi. Sadəcə olaraq, qadınları ictimai-siyasi həyatda və biznesdə təmsil olunurlar deyə cəmiyyətə təqdim etməyə çalışdılar. Amma xarakter və düşüncələrimizdəki Şərq təfəkkürü və mental dəyərləri dəyişə bilmədik. Ona görə də Azərbaycan qadını ictimai-siyasi həyatda, biznesdə az təmsil olunur. Həm də cəmiyyətin qeyri-adekvat yanaşmaları var. İctimai rəydə yanaşmalar xoş deyil. Qadınlar ictimai-siyasi işlərlə, bizneslə məşğul olanda hökmən ona arxa ola biləcək birinin olduğunu düşünənlər var. Düşünürlər ki, o qadın ailə işi, öz işi ilə məşğul deyil, uşaq tərbiyə etmək, uşaq böyütmək əvəzinə bu tipli işlərlə məşğul olur. Qadın ancaq həyat yoldaşı, ancaq ana olmalıdır deyə düşünənlər var. Azərbaycan qadını da bu tipli basqılardan bir az çəkinərək, çevrəsində olan çoxluğun rəyini nəzərə alaraq, bəzən geri durmağa məcbur olur. Əsas səbəblər bunlardır. Amma inanıram ki, bu səbəbləri aradan qaldıra biləcək ictimai-siyasi mühit yaranacaq ki, bu mühit artıq formalaşmaq üzrədir. Bu məsələləri təkcə kişilərlə, əks cinslərlə bağlamaq doğru deyil. Qeyd etdiyim kimi, bu istiqamətdə Azərbaycan qadının da vərdişləri yoxdur. Bu vərdişlər olsaydı, təbii ki, əks cinslər də bu vərdişləri ən azı normal qəbul edə bilərdi. Vərdişlər olmayanda heç kim inqilab etməyə həvəsli, eləcə də, heç kim yenilik gətirməyə, təkbaşına addım atmağa meylli olmur. Çünki cəmiyyət tərəfindən birmənalı qarşılanmayacağının fərqindədir. Ona görə də hamı məcburən geri çəkilir. Bunu təkcə kişilərin üstünə atmaq lazım deyil. Bu gün Azərbaycanda kifayət qədər normal düşünən, qadınlara hüquq və azadlıqlar verən, onların işləməsinə mane olmayan kişilər - yeni nəsil formalaşıb. Lakin onlar da hələlik cəmiyyətin az faizini təşkil edir və onların da üzərində müəyyən qədər ictimai basqı var. Proseslərə diqqət edək. 1980-ci illərin sonlarındakı geyim tərzi ilə indinin geyim tərzləri arasında nə qədər fərqlər var... O zaman geyim tərzlərini gətirənlərə cəmiyyət bir az fərqli baxırdı. Və yaxud da 15 il öncələrə baxsaq, maşın sürən qadınları barmaqla saymaq olardı. Amma indi qadınlar da maşın sürür və cəmiyyət də bu halı normal qəbul edir. Bu nəyin göstəricisidir? Təbii ki, vərdişlərin. Hesab edirik ki, vərdişlər artdıqca, çoxaldıqca və cəmiyyət bu vərdişləri özündə əxz etdirdikcə qadınlar da yavaş-yavaş ictimai-siyasi, biznes həyatına girəcəklər. Bunun üçün bir az zaman lazımdır”.

**Jurnalist Rəsmiyyə Allahverdiyeva** hesab edir ki, azərbaycanlı qadınlar idarəçiliyi çox gözəl bacarırlar: “Yox dərəcəsində olmasa da, bu sahələrdə barmaqla sayılacaq qədər xanımlarımız var. Deyərdim ki xanımlarımızda risk yoxdur, bu işlərlə məşğul olmağa. Təməldən öyrəşdiyimiz bir ənənə var, bu iş qadınlıq deyil. Son zamanlar az çox bu ənənədən çıxanlar var, amma bu da çox azdır. Bizdə bölünmüş bir kateqoriya var. Elə ixtisaslar, peşələr var ki, onlar qadın üçün keçərlidir, eləsi də var ki, kişi üçün. Bir qadın kişi işi görürsə, cəmiyyət buna reaksiya verir ki, qadın kişi işi görür. Bu qadınlarımızın bacarıqlarının az olması və ya idarəçiliyi bacarmaması ilə əlaqəli deyil. Əksinə, deyərdim ki, qadınlarımız idarəçiliyi çox gözəl bacarır. Yeni oturuşmuş sahələr var ki, onlar sırf kişilərə aid edilir. Cəmiyyətimizdə qadın bacarmaz anlayışı mövcuddur. Bir qadın siyasi lider olmağa cəhd göstərərsə, kişilər bu qadının tabeçiliyində olmağı bir az özlərinə sığışdırmırlar. Bizim psixikamıza, mentalitetimizə yad bir fikirdir ki, kişi zərif (kişilər üçün zəif) cinsin nümayəndəsinin tabeliyində çalışsın. Bu başqa sahələrə də aiddir. Qadın və kişi bərabərdir desək də, buna əməl etmirik. İlk öncə şüur altına yeridilmiş, qadın bunu bacarmaz fikrindən azad olmalıyıq. Amma son vaxtlar bu baryeri keçən xanımlarımız var. Bunu inkar etmək olmaz. Yəqin ki, zamanla bütün sahələrdə bərabərlik təmin olunar. Müəyyən sahələrdə qadınların işləməməsinə qarşı çıxan ailə faktoru da mühüm rol oynayır. Nə qədər desək ki, müasir fikirli insanlarıq, bərabər hüquqlarımız var, biz xanımlar üçün ailə bütün bunların önündə gəlir. Qadınlarımızın əksəriyyəti cəmiyyətin fikirlərindən ehtiyat etdiyi üçün bu sahələrdə işləməkdən çəkinirlər”.

**“Güzgü” İnkişaf Mərkəzinin rəhbəri, psixoloq Fərqanə Mehmanqızı** bu cür düşünmür: “Nəyə görə nisbətən bu statistika belə götürülür? Yəqin ki, kişilərin sayı ilə müqayisə edilir. Bu müqayisə doğru deyil. Statistikanı ötən illərə nisbətən götürmək lazımdır. Hələ müstəqillikdən qabaqkı dövrdə kolxoz sədrləri və ferma müdirləri olan qadınlar var idi. İndi də məktəb direktorları, bağça müdirləri arasında qadınlar az deyil. Bu sahələrdə qadınlar yetərincə çoxdur. Sadəcə nisbətdə görürük ki, qadınların çoxu, ümumiyyətlə əmək fəaliyyəti ilə məşğul olmur. Düşünmürəm ki, qadın idarəçiliyi bacarmır. Necə deyərlər, ”Beşiyi yırğalayan əl dünyanı idarə edər". Keçmiş və ya kapitalizmlə ayaqlaşan qadınlar çoxdur. Hər hansı bir qadın biznes olmağı hədəfləyibsə, düşünmürəm ki, onun qarşısını məişət problemləri kəsə bilər. Çünki bu da bir karyeradır. Nəzərə alaq ki, vitse-prezidentimiz, ombudsman qadındır. Deməli elitadan qadınlara örnəklər var və çoxdur. Kişilərə nisbətən qadınların diqqətli və məsuliyyətli olduğunu bildiyimiz halda biznesdə, idarəçilikdə onların üst səviyyədə olduğunu demək çətin olmaz. Zatən insan yetişdirməyi, ailə idarə etməyi, ailədaxili qohumlar arasındakı münasibətləri qadınlar idarə edir".

**Yazar Səbinə Abdullayeva** qadınların ön sıralarda təmsil olunduğunu bildirdi: “Deməzdim ki, qadınlar istər vəzifədə, istər biznesdə, istərsə də digər sahələrdə azdır. Bu gün qadınlarımız yetərincə aktiv şəkildə ön sıralarda təmsil olunurlar. Təbii ki, istisnalar hər zaman hər yerdə var. Bu da bəzi mental qanunlarla bağlıdır. Bəzi xanımlarımız bir qədər istər iş həyatında, istərsə də ictimai mühitdə passivlik göstərirlər. Ümumilikdə, Azərbaycan qadını həmişə fədakar, çalışqan və əzmkar olub”.

**❑ Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# “Məktəbli uşaqların oğurlanması ilə bağlı deyilənlər yalandır”

**DİN-dən açıqlama:** “Əhali arasında əsassız olaraq çaşqınlıq, qorxu atmosferi yaradılmasına xidmət edən təxribat xarakterli məlumatların yayılması məsuliyyət də doğurur”



**Artıq bir neçə gündür ki, sosial şəbəkələrdə, o cümlədən “WhatsApp” messencerində məktəblərdə uşaqların oğurlandığı ilə bağlı həyəcanlı səs yazıları yayılmaqdadır. Səs yazılarında bildirilir ki, guya milliyətcə rus olan bir qadın və kişi məktəblərin yaxınlığında gəzişir, uşaqları gizlincə oğurlayır və onların daxili orqanlarını çıxarıb, satırlar.**

Digər səs yazılarında isə bildirilir ki, bu günlərdə Bakının Hövsan qəsəbəsində və ölkənin şimal bölgəsində məktəbli uşaqlar qaçırılıb. İddia olunub ki, guya uşaqlar “orqan mafiyası” tərəfindən oğurlanıb.

Qeyd edək ki, bu tip səs yazıları vaxtaşırı yayılır və sonda heç bir əsası olmadığı üzə çıxır. Lakin son səs yazıları ictimaiyyətdə, xüsusən də valideynlər arasında ciddi narahatlıq doğurub, həyəcan yaradıb.

Məsələyə aydınlıq gətirmək üçün “Yeni Müsavat”ın əməkdaşı Daxili İşlər Nazirliyi ilə əlaqə saxlayıb. **Nazirliyin mətbuat xidmətinin rəis müavini Orxan Mansurzadə** sualımıza cavab olaraq bildirib ki, sosial şəbəkələrdə və bir sıra xəbər saytlarında yayılan belə məlumatların heç bir əsası yoxdur və onlar həqiqəti əks etdirmir:

“Bu məsələ ilə bağlı polis orqanlarına hər hansı məlumat və müraciət daxil olmayıb, heç bir fakt qeydə alınmayıb. Biz dəfələrlə qeyd etmişik, ictimaiyyətə bildirmişik ki, vətəndaşlar qarşılaşdıqları, üzləşdikləri istənilən hüquq pozuntuları, cinayət xarakterli hadisələrlə bağlı Daxili İşlər Nazirliyinin "102-Zəng Mərkəzi" Xidmətinə məlumat versinlər və ya aidiyyəti üzrə polis orqanlarına müraciət etsinlər. Əhali arasında əsassız olaraq çaşqınlıq, qorxu atmosferi yaradılmasına xidmət edən təxribat xarakterli belə məlumatların bilərəkdən, müvafiq dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparılmadan yayılması, sosial şəbəkələrdə və bir sıra xəbər portallarında tirajlanması mövcud qanunvericiliyin tələblərinə görə yolverilməzdir və kütləvi informasiya azadlığından bu formada sui-istifadə müəyyən hüquqi məsuliyyət də doğurur".

**❑ Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

**Həbsdəki müğənni:** "Axırıncı dəfə Etibarın yanına gedəndə məndən açar istədi"

YENİ MÜSAVAT
N 216 (7105) 13 oktyabr 2018

# Arvadını boşayıb, döyüb... daha sonra yandırıb



**Arvadını yandıraraq öldürən şəxs hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində arvadını xüsusi amansızlıqla öldürməkdə təqsirləndirilən Məsud Müzəfferovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. Elan olunmuş ittihamla M.Müzəffərov özünü təqsirli bildiyini deyib.

Müzəffərov söyləyib ki, keçmiş arvadı ona xəyanət edib.

**Müttəhim iddia edib ki, arvadı sosial şəbəkədə də kimləsə danışıb:** "Araşdırdım və həmin adamı da tapdım. Sonra boşanmaq üçün məhkəməyə müraciət etdim və boşandıq. Onu öldürmək istəmirdim. Dedim ki, məndən uzaq ol. Rayondan Bakıya qohum evinə gəldim. Lakin bir yerdə dayana bilmirdim. Fikirləşdim ki, gedib onunla danışım və niyə belə etdiyini soruşum".

Təqsirləndirilən M.Müzəffərov qeyd edib ki, benzin alıb, keçmiş arvadının işlədiyi mağazaya gedib.

**O söylədiyib ki, məqsədi arvadını tanınmaz hala salmaq olub:** "Benzini onun sifətinə töküb tanınmaz hala gəlməsini istədim. Lakin mağazaya girib benzini üzünə tökdüm və onu yandırdım. Həmin zaman polisin gələcəyini düşündüm və oradan uzaqlaşdım".

Məlum olub ki, M.Müzəffərov həyat yoldaşından boşanandan sonra bir müddət aliment ödəməyib.

**Suallara cavab verən Müzəffərov keçmiş həyat yoldaşını boşanandan sonra döydüyünü etiraf edib:** "Bir qədər keçəndən sonra mərhum uşağı da götürüb evdən qaçdı".

Qeyd edək ki, hadisə bu il Bakının "Memar Əcəmi" metrostansiyasının yaxınlığında mağazada baş verib.

Həmin ünvanda M.Müzəffərov həyat yoldaşı Aytəkin Müzəffərovanı benzinlə yandırıb.

Hadisə qısqanclıq zəminində baş verib. Aytəkin Müzəffərova ərindən ayrılaraq mağazada işləməyə başlayıb. Bundan qəzəblənən Məsud Müzəffərov Bakıya gələrək arvadını qısqanclıq zəminində xüsusi amansızlıqla öldürüb. Başına benzin tökərək əlindəki alışqanla ona od vurub.

Hüquq-mühafizə orqanları tərəfindən saxlanılan M.Müzəffrovun barəsində Cinayət Məcəlləsinin 120.2.4-cü (qəsdən adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.

❑ **İlkin MURADOV,**
**Musavat.com**



## «Bakcell» Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun keçirilməsinə dəstək göstərdi






**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell» oktyabrın 9-da Bakıda keçirilmiş Azərbaycanda Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun sponsoru olub.**

**Forum Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən Almaniyanın Şərq Komitəsi və Şərqi Avropa İqtisadi Birliyi (Ost-Ausschuss - Osteuropaverein der Deutschen Wirtschaft e.V.) ilə əməkdaşlıq çərçivəsində təşkil olunub. Builki tədbirin əsas mövzuları enerji və İKT sektorunda islahatlar və tərəfdaşlıq üçün perspektivlər təşkil edib. Forumun əsas məqsədi Alman şirkətləri və onların Azərbaycanlı tərəfdaşlarının Enerji və İKT sahələri üzrə layihə və təkliflərini təqdim etmək və işgüzar əməkdaşlıq üçün mövcud imkanları müəyyən etmək olub.**

**Tədbirdə Azərbaycan hökumətinin rəsmiləri, yerli biznes mühitinin yüksək vəzifəli nümayəndələri, Almaniyanın Azərbaycandakı Səfirliyinin və aparıcı alman şirkətlərinin nümayəndələri iştirak edib. Qonaqlar enerji sektorunda innovasiyalar və iqtisadi islahatlar sahəsində İKT-nin hərəkətverici qüvvəsi barədə panel müzakirələrində iştirak edib.**

**Qeyd edək ki, Alman-Azərbaycan Xarici Ticarət Palatasının 2018-ci ildən üzvü olan «Bakcell» şirkəti palatanın əməkdaşlıq və partnyorluq münasibətlərinin stimullaşdırılması və həmçinin Azərbaycanda ümumi biznes mühitinin inkişaf etdirilməsi sahəsində təşkil etdiyi tədbir və təşəbbüslərinə fəal şəkildə dəstək göstərir.**

**Artıq 20 ildən çoxdur ki Azərbaycanda fəaliyyət göstərən «Bakcell» şirkəti hazırda müxtəlif sahələri təmsil edən 3500-dən artıq korporativ müştəriyə xidmət edir. «Bakcell» ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən yerli və beynəlxalq şirkətlərə ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir. «Bakcell»in peşəkar komandası şirkətlərə, dövlət qurumlarına və digər təşkilatlara mobil telekommunikasiya sahəsində istənilən növ xidməti göstərməyə hazırdır. «Bakcell» özünün korporativ abunəçilərinə təhlükəsiz və etibarlı rabitə təqdim etməklə daha effektiv fəaliyyət göstərməkdə, müştəriləri ilə əməkdaşlıq və sıx ünsiyyət qurmaqda onlara dəstək göstərməklə ölkə iqtisadiyyatına və ümumi biznes sektorunun inkişafına töhfə verir.**

## Sumqayıtda 4 tələbə dönərdən zəhərləndi

**Sumqayıt şəhərində kütləvi zəhərlənmə olub. "Report" xəbər verir ki, Sumqayıt Musiqi Kollecinin tələbələri - 16 yaşlı Ləman Əsgərova, 17 yaşlı Turac Abdinova, 17 yaşlı Bahar Əhmədova və 18 yaşlı Aydan Abdullayeva qida zəhərlənməsi diaqnozu ilə xəstəxanaya yerləşdirilib.**

Araşdırma zamanı onların Sumqayıt şəhəri, 43-cü məhəllə ərazisində yerləşən dönərxanaların birindən alıb yedikləri dönərdən zəhərləndikləri məlum olub.

Faktla bağlı şəhər prokurorluğunda araşdırma aparılır.

## 100-ə yaxın mənzildən oğurluq edən şəxs tutuldu

**Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbiri nəticəsində paytaxt ərazisində mənzillərdən və saxlanc yerlərindən silsilə oğurluqlar edən paytaxt sakini Zaur Süleykin saxlanılıb.**

DİN-in mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, araşdırma zamanı onun evlərin pəncərələrini və dəmir barmaqlıqlarını sındıraraq pul, qızıl-zinət əşyaları, habelə təmir-tikinti alətləri oğurlaması müəyyən edilib. Z.Süleykinin ətrafında həyata keçirilən əlavə tədbirlərlə onun paytaxtın müxtəlif rayonları, həmçinin Sumqayıt şəhəri ərazilərində bu ilin əvvəlindən saxlanılana qədər 100-ə yaxın mənzildən oğurluq etdiyi məlum olub. O, istintaqa verdiyi ifadəsində təkcə Xətai rayonunda 25 mənzildən oğurluq etdiyini etiraf edib.

Qeyd edək ki, Z.Süleykin oğurluq yolla əldə etdiyi qızıl-zinət əşyalarını paytaxtın müxtəlif ərazilərində yerləşən ticarət mərkəzlərində satıb.

Faktla bağlı Xətai Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir. Həmin şəxsin digər cinayətlər törətməsi də istisna olunmur. Onun qanunsuz əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili İşlər Nazirliyinin "102" Zəng Mərkəzinə və ya Xətai Rayon Polis İdarəsinə müraciət edə bilərlər.

❑ **Musavat.com**



## Naxçıvan Muxtar Respublikasında təhsil alan 5 tələbə "Nar"dan təqaüd alacaq

**Elm və təhsilin inkişafına dəstəyi ilə seçilən "Nar"ın Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində elan etdiyi Təqaüd proqramının nəticələri məlum oldu. Belə ki, informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan, xüsusi fərqlənən və təhsildə yaxşı nəticələr göstərən 5 tələbə "Nar" tərəfindən 200 AZN məbləğində aylıq təqaüd alacaq.**

**2018-2019-cu tədris ilində təqaüd alacaq tələbələr aşağıdakılardır:**

**- Seyidova Aytən Rəsul qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 3-cü kurs**

**- Hüseynli İnci İsgəndər qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 3-cü kurs**

**- Mahmudova Aytac Rəsul qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 2-ci kurs,**

**- Qəhrəmanova Sevil Qəhrəman qızı, Naxçıvan Universiteti, Riyaziyyat və informasiya ixtisası, 3-cü kurs**

**- Qəmbərov Allahqulu Zəfər oğlu, Naxçıvan Universiteti, Riyaziyyat və informasiya ixtisası, 4-cü kurs**

**Təqaüd proqramının qalibləri ilə görüşündə "Azerfon"un mətbuat xidmətinin rəhbəri Əziz Axundov onlara uğurlar arzulayıb və bildirib ki, təhsil və maarifləmənin inkişafı "Nar"-ın xüsusi önəm verdiyi sahələrdən biridir: "Bu təşəbbüsümüzün tələbələrə yeni bilik və bacarıqları əldə etmələri və gələcəkdə uğurlu karyera qurmalarına dəstək olacağına əminəm. "Nar"-ın təqaüd proqramı növbəti illərdə də davam edəcək".**

**Təqaüd proqramı, ilkin olaraq, Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Gələcəkdə digər bölgələr və paytaxt Bakı universitetlərinin tələbələri üçün də aylıq təqaüdün verilməsi planlaşdırılır.**

**Qeyd edək ki, tələbələr üçün təqaüd proqramının elan edilməsi "Nar"-ın korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində reallaşıb. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az ttp://www.nar.az internet səhifəsindən öyrənmək mümkündür.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

**2012-ci ildə ölkə ərazisində asbest (şifer) tikinti materialından istifadə və bu materialların satışı qadağan edildi. Səbəb kimi isə göstərildi ki, bu tikinti materialları insanlarda xərçəng xəstəliyi yarada bilər.**

# Xərçəngə səbəb olan asbest şiferlər: bazarlarda satılmır, amma...

## Hələ 1980-ci ildə məlum olub ki, asbest xəstəliklərə səbəb olur

Elə "Yeni Müsavat"a müsahibəsində Azərbaycan Tibb Universitetinin (ATU) Onkoloji Klinikasının baş həkimi Nəsimi Qasımov Artıq çoxdan sübut olunub ki, asbest kanserogen maddədir:

"Ancaq hələ də insanlar bu şiferlərdən alıb fərdi yaşayış evlərinin damına vururlar. Dünyada asbestin bədxassəli şiş əmələ gətirməsi artıq qəbul olunub və bizdə də hökumətin imkanı olduqca vəsait ayırır ki, binalarda şiferlər dəyişdirilir".

Əvvəlcə məlumat üçün qeyd edək ki, Asbestin hasilatı haqında məlumatlar 4000 il əvvələ təsadüf edir. Lakin geniş şəkildə istifadəsi 19-cu əsrin sonlarında başlayıb. Bunun səbəbi asbestin unikal fiziki keyfiyyətlərinin olmasıdır: istiliyə düzümlülüyü, səs və elektrik keçirməzliyi, kimyəvi təsirə müqaviməti və ən vacibi qiymətinin yüksək olmaması.



Keçmişdə asbest ip istehsalında xammalın tərkibinə əlavə edilərək, yanmaya dayanıqlı material kimi tanınıb. Belə məlumat da var ki, Marko Polonun Asiya səyahətlərində gördüyü yanmayan paltarlar asbestdən hazırlanıb. Gərilmə müqaviməti yüksək olduğundan, istiliyi keçirməməsi və kimyəvi təsirə qarşı müqavimətli olması səbəbindən asbest bir çox sahələrdə istifadə olunub. Xüsusilə 20-ci əsrin əvvəllərində asbest liflərinin sementlə qatışdırılaraq istifadəsi bütün dünyaya yayılıb və inşaat materialları, boru, lövhələr, elektrik alətləri, ip istehsalı, izolyasiya materialları kimi bir çox sahələrdə istifadə edilib.

Lakin hələ 1890-cı ildə məlum olub ki, asbest xəstəliklərə səbəb olur. Xüsusən də bu materialın ağciyər xərçənginə səbəb olduğu bildirilib. Ona görə də əksər ölkələr bu materialdan istifadəni məhdudlaşdırıblar. Ancaq Kanada, Rusiya, Çin kimi ölkələrdə bu materialın istehsalı yenə də davam edir. Qardaş Türkiyədə isə bu məhsulun istehsalına qadağa qoyulub.

*Bəs Azərbaycan bazarlarında vəziyyət necədir?*

"Yeni Müsavat" olaraq öyrəndik ki, Bakının iri tikinti materialları bazarında şiferlərə rast gəlmək çətin məsələdir. Belə ki, hazırda dam örtüyü kimi daha çox dəmir üzlüklər və keramika üzlüklər satılır. İnsanlar da daha çox bu iki materiala maraq göstərirlər. Lakin satıcılar söylədilər ki, şifer də tapmaq mümkündür. Bu materialları insanlar daha çox anbarların və digər bu kimi yerlərin dam örtüyü üçün alırlar.

İqtisadiyyatçılar da bildirdilər ki, Azərbaycanda dam örtüyü istehsalı yoxdur. Əsasən bu materiallar xaricdən gətirilir.

Lakin bu gün də xüsusilə bölgələrimizdə insanlar evlərinin damına şifer vururlar. Buna səbəb kimi isə onlar şifer dam örtüyünün ucuz olduğunu əsas götürürlər. Mütəxəssislər bildirirlər ki, şiferlər ucuz olsa da, tez yararsız vəziyyətə düşür, rəngini dəyişir. Onu da qeyd edək ki, Avropa Birliyində asbest istifadəsi 1950-1980-ci illərə qədər sürətlə artıb. 1980-ci illərdən isə asbest istifadəsində ciddi azalma başlandı və 1999-cu il direktivi (1999/77/EC) bütün Avropa Birliyi dövlətlərində asbestin istifadəsinə və satılmasına yasaq qoyuldu.

❑ **Əli RƏİS,**
**"Yeni Müsavat"**

# Məktəblərdə "fast food"a qarşı yeni layihə başladı

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) "Sağlam məktəbli" maarifləndirici layihəsinə start verib. Layihə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, AQTA-nın Bakı Şəhəri İdarəsi və Təhsil Nazirliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşlarının iştirakı ilə həyata keçirilir.**

Agentlikdən virtualaz.org-a verilən məlumata görə, layihə çərçivəsində oktyabrın 12-si Nəsimi rayonunda yerləşən 8 Saylı Orta Məktəbin şagirdləri ilə görüş keçirilib. Tədbirdə ilk olaraq məktəblilərə Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məlumatlar verilib, "Qida zənciri"ni əks etdirən videoçarx təqdim olunub. Daha sonra agentlik əməkdaşları tərəfindən təqdim olunan "16 oktyabr - Ümumdünya Qida Günü" ilə əlaqədar təqdimatlar və "Mən qidayam" adlı videoçarx şagirdlərə nümayiş etdirilib. Məktəblilərlə görüş çərçivəsində "Məktəblərdə sanitar-gigiyenik norma və qaydalara əməl olunması", "Fast Food qidaların ziyanları" kimi mövzularda şagirdlərlə fikir mübadiləsi aparılıb. Sonda agentliyin mütəxəssisləri tərəfindən məktəbliləri maraqlandıran suallar cavablandırılıb və şagirdlərə sağlam qidalanma ilə bağlı maarifləndirici materiallar paylanılıb.

Layihənin keçirilməsində məqsəd məktəblilər arasında qida təhlükəsizliyi anlayışının təbliğ edilməsi və şagirdlərə qida təhlükəsizliyi vərdişlərinin aşılanmasıdır.

**Qeyd edək ki, cari ilin sonunadək layihənin Bakı şəhərində fəaliyyət göstərən 9 ümumtəhsil müəssisəsində həyata keçirilməsi nəzərdə tutulub.**

# Oğuzda meşə gözətçilərinə hücum edən şəxslər həbs olundu

**Oğuzda meşə gözətçilərinə hücum edən şəxslər həbs edilib.**

"Report"un xəbərinə görə, bununla bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətləri birgə məlumat yayıb.

Məlumatda bildirilib ki, oktyabrın 8-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzinin Oğuz Meşəbəyiliyinin əməkdaşlarına zor tətbiq etməklə müqavimət göstərilməsi ilə bağlı daxil olmuş məlumat əsasında Oğuz rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırmalarla müəyyən edilib ki, qeyd edilən tarixdə saat 16 radələrində rayonun Calut kənd sakini Fəzail Həsənov idarə etdiyi avtomobillə qırıntı aparmaq üçün Oğuz meşəbəyiliyinin meşə dolayına gedib, həmin gün monitorinq aparıldığına görə meşə sahəsinə daxil olmasına icazə verməyən gözətçi Zahir Qılıncovun qanuni tələbinə tabe olmayaraq girişdə qoyulmuş şlaqbaumu avtomobillə vurub sındıraraq oradan uzaqlaşıb.



Araşdırmalarla həmçinin, F.Həsənovun avtomobillə kəndin mərkəzinə doğru irəlilədikdə qanun pozuntuzusunu sənədləşdirmək üçün hadisə yerinə gələn meşəbəyiliyin digər əməkdaşlarının avtomobillərinin qarşısını kəsib onların ünvanına nalayiq söyüşlər söyməsinə, eləcə də qohumu Azər Əlmərdanovla birlikdə əməkdaşlardan biri Vüqar Şəfiyevin bədəninin müxtəlif nahiyələrinə yumruq və təpiklə bir neçə dəfə zərbə vuraraq ona xəsarətlər yetirmələrinə şübhələr üçün əsaslar müəyyən edilib.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 315.1-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə müvafiq ekspertizalar təyin olunub, şahidlər dindirilib və digər istintaq hərəkətləri aparılıb.

F.Həsənov və A.Əlmərdanov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan edilib və barələrində rayon məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

**Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.**





# Bayılda sürüşmə yenidən aktivləşdi

## 8 fərdi yaşayış evində yaşayan vətəndaşlar müvəqqəti olaraq evlərini tərk etmələri ilə bağlı xəbərdarlıq edildi; işıq və qaz verilişi dayandırıldı

**Bakının Badamdar qəsəbəsində, Bayıl yamacında oktyabr ayından başlayan sürüşmə yenidən aktivləşib. Bir neçə ərazidə istinad divarlarında təxminən 1 metrlik çatlar əmələ gəlib.**

Səbail rayon İcra Hakimiyyətindən verilən məlumatda bildirilib ki, məsələ ilə əlaqədar Fövqəladə Hallar Komissiyası, Səbail Rayon İcra Hakimiyyəti və Respublika Seysmoloji Xidmət Mərkəzinin rəhbərliyi, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər Hazirliyinin mütəxəssisləri hadisə yerində olublar. Müvafiq qurumların mütəxəssisləri tərəfindən ərazidə araşdırmalar davam edir.

Vətəndaşların və Badamdar yolundan keçən avtonəqliyyat vasitələrinin təhlükəsizliyinin təminatı üçün müvəqqəti olaraq Badamdar şossesinin bu əraziyə düşən hissəsində nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılıb.

Əraziyə yaxın obyeklərini fəaliyyəti dayandırılıb, Badamdar qəsəbəsi 3-cü yaşayış massivində dağ yamacının üst hissəsində yerləşən 8 fərdi yaşayış evlərində yaşayan vətəndaşlar müvəqqəti olaraq evlərini tərk etmələri ilə bağlı xəbərdarlıq edilib.

Səbayel rayon İcra Hakimiyyətinin başçısının müavini Abit Əliyev REAL TV-yə deyib ki, sürüşmə zonasındakı evlərə baxış keçirilir. Təhlükə müəyyən olunsa, həmin evlər köçürüləcək.

Səbail rayonunun Badamdar qəsəbəsinin sürüşmə olan ərazisinə elektrik enerjisinin verilişi dayandırılıb.

**Bu barədə Trend-ə açıqlamasında "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev deyib.**

T.Mustafayevin sözlərinə görə, təmsil etdiyi qurumun əməkdaşları hazırda hadisə yerində araşdırma aparır:

"Əməkdaşlarımız hadisə yerindədirlər. Bəzi təhlükəli yerlərə artıq elektrik enerjisinin verilişi dayandırılıb. Digər ərazilərdə də araşdırma ərazilərdə də elektrik enerjisinin verilişi dayandırılacaq".

Bakının Badamdar qəsəbəsində sürüşmə baş verən ərazidəki mənzillərə təbii qazın verilişi dayandırılıb.

Bu barədə Trend-ə "Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev məlumat verib.

İ.Kərbəlayevin sözlərinə görə, sürüşmə baş verən kimi ərazidə olan 11 fərdi evə təbii qazın verilişi dayandırılıb.

YENİ MÜSAVAT

Son səhifə

N 216 (7105) 13 oktyabr 2018



# İşsizlikdən darıxdı, klinikaya gedib "həkim" işlədi

Fransanın Bordo şəhərində işsiz darıxdığı üçün şəhər xəstəxanasına girib və uzun müddət özünü orda həkim kimi qələmə verib. Bu barədə "The Koz Post" nəşri xəbər verib. 46 yaşlı kişi tibb xalatında, boynunda stetoskop asıb müxtəlif şöbələrə girib və heç kim ondan şübhələnməyib. O, boynundan asdığı stetoskopu da xəstəxanadan oğurlayıbmış. "Həkim" xəstələrdən mümkün qədər uzaq qaçır, amma müntəzəm olaraq həkimlərlə söhbət edib. Gerçək həkimlərlə söhbət etmək ona özünü yaxşı hiss etdirirmiş. Onun söhbət etdiyi şəxslər bu yalanı bir neçə həftə sonra fərq ediblər. Bundan sonra hüquq-mühafizə orqanları onu saxlayaraq məhkəməyə təslim ediblər. Onu bir il azadlıqdan məhrum etmə və 15 min avro pul cərimısi gözləyir. Həbs olunandan sonra kişi bildirib ki, hər zaman həkim olmağı arzulayıb. Onun sözlərinə görə, o, xəstəxanada özünü həkim kimi təqdim etməklə darıxmaq hissini yox etmək istəyirmiş.

2015-ci ildə xəbər yayılmışdı ki, Amerikanın Florida ştatında 17 yaşlı yeniyetməni saxlayıblar. Sonuncu bir ay ərzində o, özünü ginekologiya bölməsində həkim kimi təqdim edib. Şübhə doğurmamaq üçün o, ağ xalat geyinir və stetoskop taxırdı.

# Dünyanın ən böyük qarderobu



Amerikada ən böyük qarderobu olan ev satışa çıxarılıb. Texas ştatındakı Hyuston şəhərində yerləşən evin qiyməti 12.9 milyon dollar dəyərləndirilib. Evin 20 otağı, 1.6 min kvadrat metr sahəsi var. Bu sahənin 917 kvadrat metri isə 3 mərtəbəli qarderobdan ibarətdir. Birinci mərtəbə bəzək əşyaları və çantalar üçün nəzərdə tutulub. İkinci mərtəbədə ayaqqabı, geyim, şlyapa və xəzlər, eləcə də ziyafətlərin təşkili üçün xüsusi otaqlar var. Amma üçüncü mərtəbənin təyinatı bilinmir. Evin sahibəsi Tereza Romer bildirib ki, o, bu evi satıb, ondan daha böyük qarderoblusunu almağı planlaşdırır. Tereza Romer bu ilin əvvəlində öz qarderobunu "Good Morning America" verilişində nümayiş etdirəndən sonar populyarlaşıb. Avqust ayında onun qarderobundan Hermes firmasından olan 3 çantasını, 1 milyon dollar dəyərində olan yuvelir əşyalarını oğurlayıblar. Həmin vaxt qadın açıqlama verib ki, baş vermiş oğurluğun səbəbi televiziyada yayımlanan reportajlardır.

# Qız baş ağrısına görə yaddaşını itirdi və hamını unutdu



İngiltərənin Kent qraflığında yaşayan 25 yaşlı qız xəstəliyə görə yaddaşını itirib və qohumlarını unudub. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Universiteti bitirəndən sonra qız kənd təsərrüfatı sahəsi üzrə işləməyə başlayıb. Üç ay sonra qız güclü baş ağrılarından şikayət etməyə başlayıb. Onun üçün əlini boynunun arxasına qədər aparmaq belə çətinləşmişdi və meningit əlamətləri özünü göstərirdi. Gill həkimə müraciət etsə də, həkim onun narahatlığı üçün hər hansı səbəb tapmayıb.

Qız bir neçə gün miqrenə görə yataqdan qalxa bilməyib. Daha sonra onda qıcolma əlamətləri özünü göstərməyə başlayıb. Ən sonda isə qızı təcili yardım maşını ilə xəstəxanaya çatdırıblar. Bu duruma səbəb isə autoimmun ensefalit olub. Bu zaman insan orqanizmində əsəb sistemi bərbad duruma qalır. Onun əmələ gəlməsinin səbəbini müəyyən etmək mümkün olmasa da, qarşısını almaq da qeyri-mümkün idi. Gill bir həftə süni komada qalıb. Oyanandan sonra o, bir neçə həftə danışa, oxuya və ya yaza bilməyib, heç nəyi xatırlamayıb. Xəstələnmədən öncə kim olması, nə öyrənməsi, hamısı onun yadından çıxmışdı. O, ancaq sevgilisini və yaxın qohumlarını tanıyıb, amma adlarını xatırlaya bilməyib.

Mütəmadi olaraq itirilmiş vərdişlər geri qayıdıb və beş həftə sonra Gill xəstəxanadan çıxıb. O, işə qayıtsa da, bir neçə gün sonra onda yenidən özündəngetmə halları başlayıb. Bundan sonra qız işdən çıxmaq zorunda qalıb. **Sitat:** "Mən anladım ki, sağalmaq üçün mənə yazıldığından da artıq vaxt lazım olacaq. Həkimlər bilmirlər ki, mənim yaddaşım tamamən bərpa olacaq, ya yox. Ona görə də mən bu durumla barışmalı və hər şeyi sıfırdan öyrənməyə başlamalıyam".




**QOÇ** - İxtiyarınızda kifayət qədər təzadlı bir tarix durur. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə səmt ala bilər. Bu səbəbdən də yaxşı bələd olmadığınız şəxslərlə işbirliyi yaratmaqdan imtina edin.

**BUĞA** - Göy qübbəsi yuxusuzluğunuzdan, həmçinin iştahasızlığınızdan şikayətlənir. Bunun qarşısını almaq üçün bütün qüvvənizi səfərbər etməlisiniz. Bu gün əlinizə düşən pulları boş məsrəflərə xərcləməyin.

**ƏKİZLƏR** - Saat 14-16 aralığını nəzərə almasaq, bu gün tam mənasıyla ürəyinizcə olacaq. Amma gərək "bir əldə iki qarpız" tutmayasınız. Çalışmalısınız ki, reallığa uyğun hərəkət edəsiniz. Sürprizləriniz də çox olacaq.

**XƏRÇƏNG** - Gün ərzində boş dayanmağınıza lüzum yoxdur. Çünki sizin kimi romantik şəxslərə bu gün heç bir zərər dəyməyəcək, üstəlik, aktivləşdiyiniz indiki dövrdə şanslarınız da artacaq.

**ŞİR** - Bu gün bürcünüz üçün ciddi seçim ərəfəsi olacaq. Yolayrıcında qalmağınız yetər. Gələcəyinizi, taleyinizi düşünürsünüzsə, konkret addımlar atın. İnsanlarla umu-küsüləri bir kənara qoyun.

**QIZ** - Ulduzlar məsləhət görür ki, pul problemlərini qabartmayasınız. Çünki istəsəniz də, istəməsəniz də, bu təqvimi kasıbçılıqla başa vuracaqsınız. Bu səbəbdən əsas diqqətinizi münasibətlərə yönəldin.

**TƏRƏZİ** - Ötən günlərlə müqayisədə bu günün sizə əhəmiyyəti böyük olacaq. Belə ruh yüksəkliyinin yaranması bürcünüzün aktivləşməsi ilə əlaqədardır. Çoxsaylı işgüzar görüşlər, perspektivli əlaqələr mümkündür.

**ƏQRƏB** - Bu vaxta qədər baş verən cəhdlərinizin boşa çıxması, uğursuz sövdələşmələr, səhhətlə bağlı narahatçılıq və s. kimi mənfi fəsadlar elə səhər saatlarından aradan qalxmağa başlayacaq.

**OXATAN** - Bütün vacib planlarınızı saat 15-ə qədər həyata keçirməyə çalışın. Çünki günün yalnız bu hissəsi ümumi işlərinizdə aktivlik mərhələsi olacaq. Daşınmaz əmlak alış-verişindən uzaq olun.

**OĞLAQ** - Ulduzların düzümü saat 13-ə qədər ümumi işlərinizdə passivliyin hökm sürəcəyindən xəbər verir. Həmin müddətdə riskli işlərdən uzaq olmalı, yeni müqavilə və təkliflərdən boyun qaçırmalısınız.

**SUTÖKƏN** - Xırda mübahisələri nəzərə almasaq, bu gün sizin üçün normal keçəcək. Ədalətsiz insanları görəndə, haqsızlığın şahidi olanda üsyankarlıq göstərməyin. Öz ideyalarınızı beyinlərə təmkinlə yeridin.

**BALIQLAR** - Saat 12-yə qədər mübahisə və konfliktlərdən, eləcə də yeni işlərə başlamaqdan vaz keçməlisiniz. Sonrakı müddətdə isə qarşınıza qoyduğunuz ideyaların reallaşmasında heç bir çətinlik çəkməyəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Evlənmə təklifinə görə evin damını uçurdu



Bir hollandiyalı ilginc evlilik təklifi etmək istəsə də, sonu qanqaraçılıqla yekunlaşıb. Lenta.ru saytının xəbərinə görə. İysselsteyn şəhər sakini sevdiyi qızın yaşadığı bina ilə üzbəüz binanın damına çıxıb, ordan ona evlənmək təklif etmək istəyib. Bunun üçün kran kirayələyən kişinin arzusu isə sonucda gözündə qalıb. Çünki kranda baş verən texniki nasazlıq nəticəsində binanın damı uçub. Damı dərhal düzəltmək istəsələr də, bu, mümkün olmayıb. Son nəticədə bina sakinləri evakusiya edilib. Əsrarəngiz təklif etmək istəyən gənci isə həbs təhlükəsi gözləyir. Baş verənlər isə videonun yaddaşına köçürülüb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100